HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 50 (740) ▪ 25 dekabr 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev seçki məntəqəsində səs verib

*Dekabrın 23-ü müstəqil Azərbaycanın tarixinə növbəti bələdiyyə seçkiləri günü kimi daxil olacaq. Həmin gün seçicilər seçki məntəqələrinə gələrək qarşıdakı beş il üçün yerli özünüidarəetmə orqanlarına üzvlüyə layiq bildikləri namizədlərə səs verirdilər. Seçki prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.*

6 saylı məntəqə 667 seçicini əhatə edir. Digər seçki məntəqələrində olduğu kimi, burada da səsvermənin normal keçməsi üçün hər şey nəzərə alınmışdı. Müşahidəçilər səsvermənin gedişini izləyirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəliblər. Prezident İlham Əliyev seçki bülletenini alaraq səs verib. Sonra Mehriban Əliyeva və ailə üzvləri də səs veriblər.



# İlin idman yekunlarına həsr olunmuş mərasim

*Dekabrın 22-də Milli Olimpiya Komitəsində 2014-cü ilin idman yekunlarına həsr olunmuş mərasim keçirilib. Azərbaycanın dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.*

Tədbirdə nitq söyləyən Prezident bildirib ki, həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmiz bu gün dünyada idman dövləti kimi tanınır: «Bu gün həm idmançılarımız bizi qələbələrlə sevindirirlər, həm də Azərbaycanda idman infrastrukturu yaradılır. Bir daha demək istəyirəm ki, Azərbaycanın idman nailiyyətləri artıq dünyada yüksək qiymətləndirilir. Bütövlükdə, 2014-cü il ölkə iqtisadiyyatı üçün uğurlu il olmuşdur. Eyni zamanda, bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənmişdir. Bizim idmançılar ildən-ilə daha da çox medal qazanırlar. Bu il də istisna il olmamışdır. Beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında 805 medal qazanılmışdır və onlardan 275-i qızıl medaldır».

Dövlət başçısı qeyd edib ki, il ərzində Azərbaycanda bir neçə mötəbər beynəlxalq yarış keçirilmişdir. Onlardan ikisi Avropa çempionatıdır - bədii gimnastika və taekvondo üzrə. Hər il Azərbaycanda beynəlxalq yarışlar keçirilir. Respublikamızda idman qurğularının tikintisinin davam etdirildiyini diqqətə çatdıran ölkə Prezidentinin sözlərinə görə, hazırda 9 rayonda Olimpiya komplekslərinin tikintisi aparılır, yaxud ona hazırlıq işləri gedir.

Azərbaycan Prezidenti onu da vurğulayıb ki, gələn il Bakıda birinci Avropa Oyunları keçiriləcək. Bu möhtəşəm idman bayramı ilə bağlı hazırlıq işləri son mərhələdədir. Dövlətimizin başçısı bildirib ki, Avropa Oyunlarının keçirilməsi ölkəmizin dünya idmanında mövqeyini daha da gücləndirəcək: «Oyunlar bizə imkan verəcək ki, Azərbaycanı olduğu kimi dünyaya təqdim edək və bir daha göstərək ki, gənc müstəqil Azərbaycan böyük uğurlara imza atır, dünyaya açıqdır, ölkəmiz müasirdir, eyni zamanda, öz tarixinə, mədəni köklərinə bağlıdır, ölkəmizdə təhlükəsizlik tədbirləri yüksək səviyyədə təmin edilir. Bakı və Azərbaycan dünyanın ən təhlükəsiz şəhərlərindən, ölkələrindən biridir. Beləliklə, Azərbaycan dünyaya öz imkanlarını bir daha göstərəcək».

Mərasimin sonunda 2014-cü ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olunub.

# Hər bir azərbaycanlının PREZİDENTİ

*Statusundan, ictimai mövqeyindən asılı olmayaraq, hər bir insanın hansı ideyanın daşıyıcısı, nə əməl sahibi olduğunu müəyyənləşdirmək üçün ən etibarlı istinad yeri onun gördüyü işlərdir. İctimai rəyin siyasi vədlərə deyil, konkret faktlara qiymət verməsi anlamında xalqımız kifayət qədər müdrikdir.*



Davamlı inkişafa təminat olan, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ənənələri davam etdirmək üçün Azərbaycan Prezidenti cənab İlham Əliyevin ən real şanslara malik olduğunu təsdiqləyən proseslər ötən 11 ildə ictimai rəydə həm də bu siyasətin alternativsizliyi qənaətini yəqinləşdirmişdir. Bəli, cənab İlham Əliyev hər cür pafosdan, populizmdən tamamilə uzaq olan, praqmatik, realist təfəkkürlü liderdir. Ölkə başçısının elə vədi yoxdur ki, reallaşmamış qalsın. Cəmi 11 ildə həyata keçirilən islahatların - real miqyasına, əhəmiyyətinə görə - ən azından onilliklər ərzində reallaşdırılması mümkünlüyü inkarolunmaz reallıqdır.

Cənab İlham Əliyevin prezidentlik fəaliyyəti ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah və tərəqqi prosesinin geniş vüsət alması ilə səciyyəvidir. «Mən hər bir azərbaycanlının prezidenti olacağam» - deyən dövlət başçısı ötən dövrdəki çoxşaxəli fəaliyyəti ilə bu nəcib niyyətini bütünlüklə doğrultmuş, sistemli və düzgün koordinasiya olunmuş fəaliyyəti ilə xalq qarşısında verdiyi bütün vədlərə sadiqliyini sübut etmişdir.

Ötən dövrün reallıqları deməyə əsas verir ki, ölkə başçısı İlham Əliyev hər bir mərhələdə hökumətin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir. «Əsl siyasət konkret, real iş görməkdən ibarətdir» - tezisini irəli sürmüş Azərbaycan Prezidenti bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün ciddi siyasi iradə, qətiyyət və əzmkarlıq nümayiş etdirmişdir. Praqmatizm, səmimilik, siyasi iradə və qətiyyətlilik, məqsədyönlülük, mütərəqqi islahatlara meyillilik, öz siyasətini reallaşdırarkən hər bir fərdin, qrupun, ümumilikdə, toplumun maraqlarını nəzərə almaq qabiliyyəti kimi mühüm keyfiyyətlər Prezident İlham Əliyevin fenomen siyasi lider obrazının şərtləndirən mühüm elementlər sırasında xüsusi vurğulana bilər.

Davamı 2-ci səhifədə

## Heydər məscidində son tamamlama işləri gedir

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva paytaxtın Binəqədi rayonunun ərazisində inşa edilən Heydər məscidində aparılan son tamamlama işlərinin gedişi ilə tanış olublar.

Dövlətimizin başçısına məlumat verilib ki, yeni məscid 12 min kvadratmetr sahədə salınıb. Artıq məscidin fasadında bütün işlər görülüb, 72 metr hündürlüyündə 4 minarənin inşası başa çatdırılıb. Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib. Tikinti işləri zamanı bəzək elementləri xüsusi ustalıqla yerinə yetirilib. Ornamentlərin zənginliyi məscidin fasadının arxitekturasında xüsusi harmoniya yaradıb. Ümumi sahəsi 4200 kvadratmetr olan məscidin daxilində də tamamlama-bəzək işləri başa çatmaq üzrədir. Burada da xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıb. Hündürlükləri 55 metr və 35 metr olan baş və ikinci günbəzlər məscidin daxilinə xüsusi gözəllik verir.

Prezident İlham Əliyev məsciddə aparılan işlərin yüksək keyfiyyətlə yerinə yetirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verib.

## «Bakı Ağ Şəhər»in ofis binasının inşası başa çatıb

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Bakı Ağ Şəhər»in inşası başa çatan ofis binası və «Bakı Ağ Şəhər» layihəsi çərçivəsində görülən digər işlərlə tanış olublar. Dövlətimizin başçısına layihə çərçivəsində həyata keçirilən işlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, «Bakı Ağ Şəhər»in ilk landmarkı və giriş qapısı sayılan yüksək səviyyəli ofis binası artıq istifadəyə hazırdır. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri aparılıb. Layihə çərçivəsində yol və kommunikasiya infrastrukturları da inşa olunmaqdadır.

Tikintisi gedən 45 metr enində Xəqani Rüstəmov küçəsi Neftçilər prospektini Nobel və Babək prospektləri ilə birləşdirəcək. Metropolitenin Ağ Şəhərin ərazisindən keçəcək xəttinin tikintisinə də başlanıb. Layihədə nəzərdə tutulan 6 yeraltı piyada keçidindən 3-nün inşası davam edir. Ofis binasının yanında 360-dan çox avtomobil üçün ən müasir standartlara cavab verən parkinq də inşa olunub. «Bakı Ağ Şəhər» ofis binasının cazibədar, estetik xətləri müasir memarlığın mükəmməl nümunələrindəndir.

Prezident İlham Əliyevə məlumat verilib ki, Ağ Şəhərin 10 rayonundan 6-nın ərazisi tamamilə təmizlənib və inşaat işləri gedir. Layihənin icra müddətində Ağ Şəhərin neft məhsulları ilə çirklənmiş ərazisinin böyük hissəsi təmizlənib və yararlı vəziyyətə gətirilib. «Bakı Ağ Şəhər»in «Yaşıl ada» rayonunda aparılan tikinti-quraşdırma işləri ildən-ilə vüsət götürür. Burada fransız üslubunda inşa olunan 7 mərtəbəli yaşayış binaları paytaxt sakinlərinin rahatlığı üçün üstünlük verdikləri məkanlardan biri olacaq. Hazırda buradakı yaşayış komplekslərinin bəzilərində tikinti işləri son mərhələdədir və onlar tezliklə hazır olacaq. Ümumi sahəsi 24 hektara çatan «Park» rayonunda da inşaatçılar səylə çalışırlar. Burada 20 mərtəbəli hündür yaşayış binaları tikilir. Səhnin relyefinə uyğun olaraq amfiteatr üslubundakı «Park» rayonundan bulvara və Bayraq Meydanına gözəl mənzərə açılır.

Prezident İlham Əliyevə inşası davam edən və tikintisi nəzərdə tutulan layihələr barədə də xəritə və eskizlər əsasında məlumat verilib. Artıq Ağ Şəhərdə müasir və klassik üslublu 7 mərtəbəli yaşayış komplekslərinin tikintisinə başlanıb. Ağ Şəhərin ərazisini qərb və şərq hissələrinə ayıran, mərkəzi prospektin ortasında yerləşən meydan da füsunkar görkəmi ilə fərqlənəcək. Fəvvarələr meydanında da inşaat işlərinin miqyası artmaqdadır. Burada müasir üslublu yaşayış binalarının tikintisinə başlanıb. Meydanın mərkəzində 1 hektar ərazini əhatə edəcək park sakinlərin sevimli istirahət guşəsinə çevriləcək.

2 Vergilər naziri Fazil Məmmədov Xırdalanda vətəndaşları qəbul edib

2 «Açıq qapı» günü

3 «Elektron xidmətlər: səmərəli idarəçilik və yeni nailiyyətlər»

6 Tədris-Metodiki Şuranın növbəti iclası

# Hər bir azərbaycanlının PREZİDENTİ

*Əvvəli 1-ci səhifədə*

Ötən illərdə ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilmiş, «Ümid», «Abşeron» kimi perspektivli yataqlar kəşf olunmuş, Şərqlə Qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisinə başlanılmış, ölkə əhəmiyyətli yolnəqliyyat sistemi, infrastruktur müasirləşdirilmişdir. Son günlərini yaşadığımız 2014-cü ildə XXI əsrin ən mühüm siyasi-iqtisadi hadisəsi olan «Cənub Qaz Dəhlizi» ilə bağlı nəhəng saziş imzalanmışdır. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızın bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etmişdir.

Bu gün Azərbaycan bütövlükdə MDB və Avropa məkanında heç bir ölkədən enerji asılılığı olmayan, müstəqil siyasət yeridən azsaylı dövlətlərdən biridir. Bu fakt özlüyündə Azərbaycanın dünya birliyi üçün önəmini daha da artırmış, respublkamızın Avratlantik strukturlara inteqrasiya prosesini sürətləndirmişdir.

Monolit, işlək, çevik komandaya malik Prezident İlham Əliyev keyfiyyətcə yeni mərhələdə qarşıda duran əsas vəzifələri düzgün müəyyənləşdirərək, ilk növbədə, milli iqtisadiyyatda kəmiyyət dəyişikliklərinin keyfiyyət müstəvisinə keçirilməsini təmin etmiş, respublikamız 2009-cu ildə MDB məkanında ilk dövlət olaraq iqtisadi sahədə keçid dövrünü başa vurmuşdur. Azərbaycanın investisiya və sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli tərəqqi prosesində yeni keyfiyyət göstəricilərinin əldə olunması, qeyri-neft sektorunun inkişafı yolu ilə regionların tarazlı və davamlı inkişafının sürətləndirilməsi, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, faydalı məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib məsələləri özündə ehtiva etmişdir. Yeni neft strategiyasının uğurla davam etdirilməsi, ölkənin xarici sərmayələr üçün cəlbediciliyinin qorunması, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, «qara qızıl»dan əldə olunan gəlirlərin respublikada insan kapitalının formalaşdırılması məqsədinə yönəldilməsi iqtisadi siyasətin əsas prioritetləri kimi diqqəti çəkir. Bunun nəticəsidir ki, ötən 11 ildə müstəqil Azərbaycan iqtisadi cəhətdən möhkəmlənmiş, qüdrətlənmiş, sosial-iqtisadi yüksəliş, ilk növbədə, insanların gündəlik həyatında özünü daha qabarıq büruzə vermişdir.

Demokratiyanın mühüm göstəricilərindən biri də hökumətin ictimai rəyə münasibəti əsasında müəyyənləşir. İctimai rəy dövlətin işinə nəzarət funksiyasını yerinə yetirməklə müsbət və mənfi meyillərə obyektiv qiymət verən, hökuməti mövcud problemlərin həllinə doğru istiqamətləndirən mühüm mexanizmdir. Ötən illərdə hökumətin vaxtaşırı olaraq xalqa hesabat verməsi də milli dövlətçilik tariximizdə mütərəqqi ənənəyə çevrilmiş, demokratik dəyərlərə hörmətin, ictimai rəyə həssas münasibətin ifadəsi kimi diqqəti çəkmişdir. Bu, eyni zamanda, cəmiyyətdə şəffaflığın və sosial ədalət normalarının qorunmasını təmin etmiş, dövlət məmurlarının xalq və prezident qarşısında məsuliyyətini artırmış, onları qarşıya qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi üçün daha səylə çalışmağa sövq etmişdir. Artıq bir neçə ildir ki, bu cür hesabatlar həm də konkret dövr ərzində əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsi, müstəqil dövlətimizin əldə etdiyi uğurların ictimaiyyətə düzgün, obyektiv çatdırılması, mövcud problemlər ətrafında müzakirələrin aparılması, bu problemlərin həlli yollarının tapılması üçün səmərəli vasitəyə çevrilmişdir.

Prezident İlham Əliyevin qazandığı uğurların bir mühüm səbəbi də var: dövlət başçısı insan və şəxsiyyət amilini ucaltmaqla, hər bir vətəndaşın maraqlarının dövlət üçün üstün olduğunu nümayiş etdirmişdir. Azərbaycan Prezidenti dövlətin gənclərə diqqət və qayğı ilə yanaşdığını daim ön plana çəkmişdir. Ölkə başçısı ASAN Könüllülərinin I Ümumrespublika Forumunda etdiyi çıxışı zamanı da dövlətin gənclər siyasəti, gənclərimiz haqda danışmışdır: *«Gənclərimiz bizim gələcəyimizdir. Mən şadam ki, Azərbaycanda çox müasir, dövlətə, Vətənə bağlı olan gənc nəsil yetişir».*

Cənab İlham Əliyevin prezidentlik dövrünün ən böyük uğurlarından biri də Azərbaycan kəndinə şəhər simasının gətirilməsi olmuş, cənubdan şimala, şərqdən qərbə çoxsaylı yaşayış məntəqələrində yeni sosial-mədəni obyektlər - ən müasir tələblərə cavab verən yeni məktəblər, səhiyyə ocaqları, körpülər, yollar tikilmişdir. Hətta sovet dövründə də mavi yanacaq üzü görməyən Yardımlıya, Lerikə qaz çəkilmiş, Qubanın ucqar dağ kəndi Xınalığa yol çəkilmiş, daha bir layihənin - strateji əhəmiyyətli Quba-Şamaxı yolunun inşasına başlanılmış, Şəmkirçay su anbarı istifadəyə verilmişdir. Bütün bunlar regionlarda mənəvi ab-havanın yaxşılaşmasına səbəb olmaqla Azərbaycan insanının dövlətə, onun rəhbərinə etimadı, sevgini və rəğbətini daha da artırır.

Prezident İlham Əliyevin lider kimi qüdrəti həm də onun gələcək barədə kifayət qədər aydın, realist, nikbin baxışlara malik olmasıdır. YAP-ın son qurultayında dövlətimizin başçısının söylədiyi fikirlər bu baxımdan xüsusi maraq doğurur: *«İkinci belə ölkə tapılmaz ki, on il ərzində iqtisadiyyatı üç dəfədən çox artsın və bütün başqa statistik göstəriciləri də ən yüksək səviyyədə olsun. Hər bir ölkə üçün bu, nümunə ola bilər. Yoxsulluq 6 faizə, işsizlik 5,2 faizə düşübdür. Bir milyon 100 mindən çox yeni iş yeri açılmışdır. Xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 7 faizini təşkil edir. Bütün beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqlərini artırır. Ölkəmiz artıq rəqabətqabiliyyətliliyə görə dünya miqyasında 46-cı yerdədir. Çox böyük iqtisadi təşəbbüslər irəli sürülür. Çox böyük islahatlar aparılır. Bu, reallıqdır. Əlbəttə, bu reallıq bizə imkan verir ki, gələcəyə nikbinliklə baxaq, öz gələcəyimizi planlaşdıraq və biz gələcəyimizi planlaşdırırıq. Artıq biz «Azərbaycan 2020: gələcəyə baxı» İnkişaf Konsepsiyasının həyata keçirilməsi ilə məşğuluq».*

Son aylar dünyada gedən proseslərə, iqtisadi problemlərə baxmayaraq, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu inkişafı 2014-cü ildə də davam etmiş, bütün sahələrdə uğulu iqtisadi və mühüm sosial nəticələr əldə olunmuşdur. Cənab Prezident ASAN Könüllülərinin I Ümumrespublika Forumunda etdiyi çıxışı zamanı regionda, dünyada baş verən problemlərə toxunaraq, bu mənfi halların Azərbaycana heç bir neqativ təsirinin olmayacağını əminliklə ifadə etmişdir: *«İndi neftin qiyməti çox aşağı düşübdür. Azərbaycanda bir adam bunu hiss edibmi? Xeyr, hiss etməyəcəkdir. Çünki bizim çox güclü iqtisadi dayaqlarımız var. Manatın məzənnəsi sabitdir və bu, onu deməyə əsas verir ki, həm iqtisadi gücümüz, düşünülmüş siyasətimiz, eyni zamanda, sosial siyasətimiz var».*

Bütün bunlar deməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin təməlini qoyduğu siyasi xəttin davam etdirilməsi cəmiyyətin siyasi sifarişidir və bu gün hər birimiz həmin siyasətin tam mənəsində özünü doğrultduğunun canlı şahidiyik.

**Anar ƏLİYEV**

## Vergilər naziri Fazil Məmmədov Xırdalanda vətəndaşları qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.*

Növbəti belə qəbul dekabr ayının 19-da vergilər naziri Fazil Məmmədov tərəfindən Xırdalan şəhərində yerləşən Abşeron Rayon Mədəniyyət Mərkəzində Abşeron, Xızı və Siyəzən rayonlarından olan vətəndaşlar üçün keçirilmişdir. Vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, pos-terminalların quraşdırılması, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılmışdır.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerində həll olunmuş, müraciətlərin bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını ifadə etmişlər.

## Vergi Məcəlləsinə dəyişikliklər edilib

*«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2014-cü il 28 noyabr tarixli 1115-IVQD nömrəli Qanunu ilə Vergi Məcəlləsinə fiziki şəxslərin elektron qaydada vergi uçotuna alınması ilə bağlı dəyişikliklər edilmişdir. Bu qanun «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 3 mart 2014-cü il tarixli, 119 nömrəli Fərmanının 1-ci bəndinin icrası məqsədilə qəbul edilmişdir.*

Məcəllənin 34.2-ci maddəsinin birinci hissəsinin birinci cümləsində «müddətində» sözündən sonra «(fiziki şəxslərin elektron formatda vergi uçotuna alınması istisna olmaqla)» sözləri əlavə edilmişdir. Bununla yanaşı, Məcəllənin 34.2-ci maddəsinin birinci hissəsinə «Fiziki şəxslərin elektron formatda vergi uçotuna alınması dərhal həyata keçirilir və müvafiq şəhadətnamə onlar üçün ayrıca yaradılmış elektron ünvana real vaxt rejimində göndərilir» məzmununda ikinci cümlə əlavə edilmişdir.

Dəyişikliyə əsasən, fiziki şəxslərin adi qaydada vergi uçotuna alınmasından fərqli olaraq elektron formatda vergi uçotuna alınma dərhal həyata keçirilir və müvafiq şəhadətnamə fiziki şəxslər üçün ayrıca yaradılmış elektron ünvana real vaxt rejimində göndərilir.

## İşə qəbulla bağlı müsabiqə başa çatıb

«Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında» Əsasnaməyə müvafiq olaraq, Vergilər Nazirliyi tərəfindən keçirilmiş növbəti - sayca 10-cu işə qəbul müsabiqəsi başa çatmışdır. Müsabiqədə iştirak etmək üçün elektron ərizə ilə müraciət edən 1936 nəfərdən 1717-nin sənədləri qəbul olunmuş, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ilə birgə təşkil olunmuş test imtahanında 1373 nəfər iştirak etmişdir. İmtahanda iştirak edən namizədlərdən 289 nəfəri 70 və daha yüksək bal toplayaraq növbəti mərhələyə - müsahibəyə buraxılmışdır.

Vergilər Nazirliyinin Müsabiqə Komissiyası tərəfindən təşkil olunan müsahibədə iştirak edən 164 nəfər gənc bu mərhələni də uğurla başa vuraraq vergi orqanlarında işlə təmin olunmaq imkanı əldə etmişlər. Dövlət vergi orqanlarına işə qəbul məqsədilə keçirilmiş müsabiqənin müsahibə mərhələsini müvəffəqiyyətlə başa vurmuş namizədlərin siyahısı (imtahan balı sırası ilə) Vergilər Nazirliyinin rəsmi internet saytında (www.taxes.gov.az www.taxes.gov.az) dərc edilmişdir.

Qeyd edək ki, indiyədək keçirilmiş 9 müsabiqə nəticəsində vergi xidmətinə 1000 nəfərdən çox gənc işə qəbul olunmuşdur.

# «Açıq qapı» günü

## 2 saylı Ərazi Vergilər Departamentində təşkil olunan tədbirdə KİV nümayəndələri bu vergi orqanının fəaliyyət istiqamətləri ilə yaxından tanış oldular



*Dekabrın 17-də Vergilər Nazirliyinin 2 saylı Ərazi Vergilər Departamentində (ƏVD) media nümayəndələri üçün keçirilən «Açıq qapı» gününün başlıca məqsədi departamentin fəaliyyəti barədə ictimaiyyətin məlumat alma imkanlarının genişləndirilməsinə şərait yaratmaq idi. Ölkənin 30-dan çox aparıcı KİV nümayəndəsinin iştirak etdiyi tədbirdə jurnalistlər 2 saylı ƏVD-nin fəaliyyəti, vergi ödəyicilərinə göstərilən xidmətlər, qeydiyyat prosedurları və s. ilə əyani tanış oldular.*

**2 saylı ƏVD-nin rəisi, baş vergi xidməti müşaviri Abbas İsmayılov** bildirdi ki, 2014-cü ilin 11 ayında departament üzrə müəyyən olunan proqnoz (109 milyon 601,7 min manat) 102,1% icra edilməklə 111 milyon 900,5 min manat, yəni proqnozdan 2 milyon 300 min manat çox vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib. Departament üzrə müəyyən olunan proqnozun (121 milyon 644,5 min manat) 90,5%-ni Sumqayıt şəhərinin (70 milyon 738,1 min manat) və Abşeron rayonunun (30 milyon 292,3 min manat) büdcələrinin dotasiyasız olmasına şərait yaradır. Yəni Sumqayıt şəhəri və Abşeron rayonu Vergilər Nazirliyinin xətti ilə yığılan vəsaitlər hesabına öz xərclərini ödəyə bilirlər.

Bildirildi ki, 2014-cü ilin 11 ayı ərzində departament tərəfindən 5653 vergi ödəyicisi dövlət qeydiyyatına alınmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 20,6% çoxdur və bu sahədə göstərilən xidmətlərin 61%-i elektronlaşdırılıb. Ümumilikdə, departament tərəfindən vergi ödəyicilərinə 58 adda elektron xidmətlər göstərilir. Sumqayıt, Xırdalan və Siyəzən şəhərlərində Vergi ödəyicilərinə xidmət mərkəzləri fəaliyyət göstərir. 2 saylı ƏVD-nin 44 nəfərdən ibarət «Vergi dostları» şəbəkəsi mövcuddur və şəbəkənin üzvləri vergi təbliğatının aparılmasında fəal rol oynayırlar.

Departament vergi nəzarəti tədbirlərini uğurla həyata keçirir. Məhz bunun nəticəsidir ki, 2014-cü ilin 11 ayında 9 milyon 454,6 min manat vəsaitin əlavə hesablama və maliyyə sanksiyaları şəklində ödənilməsi təmin edilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 67,9% (3 milyon 824,3 min manat) çoxdur.

Bəyannamələrin kameral yoxlanılması zamanı 10051 vergi ödəyicisində, yəni aktiv ödəyicilərin 52%-də aparılmış kameral vergi yoxlamaları üzrə kənarlaşmalar aşkar edilərək 22 milyon 420 min manat (keçən ilin müvafiq dövrü ilə müqayisədə 66,4% - 8 milyon 946,2 min manat çox əlavə vergi hesablanıb. Hesablanan vəsaitin 6 milyon 504,5 min manatının büdcəyə ödənilməsi təmin edilib. Bu göstərici keçən ilin müvafiq dövrünə nisbətən 47,6% (2 milyon 096,3 min manat) çoxdur.

*Davamı 3-cü səhifədə*

# «Açıq qapı» günü

*Əvvəli 2-ci səhifədə*

Jurnalistlərin diqqətinə çatdırıldı ki, bu ilin 11 ayı ərzində aparılan 5906 operativ vergi nəzarəti tədbirlərinin 97,6%-də qanun pozuntusu aşkar edilib və bunun da nəticəsində 1 milyon 816,4 min manat maliyyə sanksiyası tətbiq edilərək 98,9%-nin büdcəyə ödənilməsi təmin olunub. Xüsusi lisenziya tələb edilən fəaliyyət növləri ilə bu cür lisenziya almadan fəaliyyət göstərən 731 vergi ödəyicisi aşkarlanaraq, toplanmış materiallar aidiyyəti üzrə baxılması üçün məhkəməyə göndərilib. Yoxlamalar zamanı 327 vergi ödəyicisində əmək müqavilələri hüquqi qüvvəyə minmədən işçilərin cəlb edilməsi halı müəyyən edilib. Bununla bağlı 368 min manat maliyyə sanksiyası tətbiq olunub və 98,4%-nin ödənilməsi təmin edilib.

**Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsinin rəisi, kiçik vergi xidməti müşaviri Tural Quliyev** «Vergi borclarının alınması» mövzusunda təqdimatında vergi borclarının tərkibi və borc məbləğlərinin dinamikası, borcun yaranma səbəbləri, vergi borclarının dövlət büdcəsinə alınması istiqamətində görülən tədbirlər barədə ətraflı məlumatlar verdi. Bildirildi ki, vergi orqanları hər bir borclu vergi ödəyicisinə fərdi yanaşmağa çalışır, yaranmış vergi borcu və təqdim edilməmiş bəyannamələrlə bağlı məlumatların vergi ödəyicilərinə operativ şəkildə çatdırılması məqsədilə mütəmadi olaraq onların mobil telefonlarına yazılı mesajlar (SMS-lər) göndərilir: «Vergilər Nazirliyi tərəfindən borclu vergi ödəyiciləri barədə məlumat bazası yaradılıb və həmin vergi ödəyiciləri müvafiq meyarlar nəzərə alınmaqla risk qrupları üzrə təsnifləşdirilib. Bu təsnifləşdirmə vergi borcunun ödənilməsi istiqamətində daha tez nəticə verə biləcək metodların seçilməsinə, görülmüş və görüləcək işlərə nəzarətin daha səmərəli şəkildə həyata keçirilməsinə kömək edir. Cari ildə borclu vergi ödəyicilərinin bank hesablarına qoyulmuş sərəncamlar nəticəsində 31,1 milyon manat məbləğində, əmlakın siyahıya alınması barədə açılmış qərarların icrası nəticəsində 60,3 milyon manat məbləğində və vergi ödəyicisinin borcunun təsisçisi olduğu hüquqi şəxsdəki payına yönəldilməsi nəticəsində 1,6 milyon manat məbləğində borc dövlət büdcəsinə ödənilib. 519 vergi ödəyicisi tərəfindən avtonəqliyyat vasitələri siyahıya alınmaya təqdim edilmədiyi üçün üzərlərinə həbs qoyulmaqla onların cərimə meydançalarında yerləşdirilməsi məqsədilə məhkəmələr tərəfindən müvafiq qərarlar qəbul olunub. Borclu fiziki şəxslərin ölkədən getmək hüququnun məhdudlaşdırılması ilə əlaqədar vergi orqanları tərəfindən icra məmurlarına edilmiş müraciətlər və onların verdikləri təqdimatlar əsasında məhkəmələr 60 vergi ödəyicisinin ölkədən getmək hüququnun məhdudlaşdırılması barədə qərarlar qəbul edib».



Bildirildi ki, cari ilin 11 ayı ərzində xeyli və ya külli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırdığına görə 803 vergi ödəyicisi üzrə 30,9 milyon manat borc məbləğini əhatə edən materiallar ibtidai istintaq qaydasında araşdırılması məqsədilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilib, onlardan 172 iş üzrə 1 milyon 653,3 min manat məbləğində yayındırılmış vergi məbləği dövlət büdcəsinə ödənildiyi üçün həmin şəxslər barəsində cinayət işi başlanılmayıb və ya başlanılan cinayət işlərinə xitam verilib.

**Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Bələdiyyələrlə iş şöbəsinin rəisi Şükür Əhmədov** 2014-cü ildə yerli (bələdiyyə) vergi və ödənişlərin elektron uçotunun tətbiqi üzrə pilot layihənin həyata keçirilməsi sahəsində görülən işlər barədə məlumat verdi. Qeyd olundu ki, 2014-cü ildə Bakı şəhərinin Binəqədi rayonunun 5 bələdiyyəsində, Abşeron rayonunun Saray və Şəmkir rayonunun Şəmkir bələdiyyələrində yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin, habelə yerli vergi və ödənişlərin uçotunun tətbiqi üzrə pilot layihə həyata keçirilir. Bələdiyyələrdə elektron uçotun tətbiqi ilə bağlı Vergilər Nazirliyinin sifarişi əsasında 5 altsistemdən ibarət «Bələdiyyə Vergi İnformasiya Sistemi» (BVİS) proqram təminatı hazırlanıb. Bələdiyyə vergilərinin ödəyicilərinin istifadəsi üçün «İnternet Bələdiyyə İdarəsi» (www.e-belediyye.gov.az) yaradılıb və hazırda zəruri texniki tədbirlər həyata keçirilir. Vergi ödəyiciləri İnternet Bələdiyyə İdarəsinə daxil olmaq üçün bələdiyyələrdən şifrə və parol almaqla, yaxud «Asan imza» və «Mobil imza»dan istifadə etməklə bələdiyyələrin onlara təqdim etdikləri elektron xidmətlərdən yararlana bilərlər.

Bildirildi ki, «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Azərbaycan Respublikasının Qanununda edilən dəyişikliyə əsasən, 2015-ci ilin 1 yanvar tarixindən yerli vergi və ödənişlərin ödənilməsi banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçiriləcək. Qanun qüvvəyə mindikdən sonra bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbul olunması dayandırılacaqdır.

Tədbirin sonunda KİV nümayəndələrinin çoxsaylı sualları cavablandırıldı.

**Rəşad SADIQOV**

# «Elektron xidmətlər: səmərəli idarəçilik və yeni nailiyyətlər»

*Dekabrın 17-də Beynəlxalq Mətbuat Mərkəzində «Vergilər» qəzeti və «Professional MÜHASİB» jurnalının təşkilatçılığı ilə «Elektron xidmətlər: səmərəli idarəçilik və yeni nailiyyətlər» mövzusunda «dəyirmi masa» keçirilib. Vergilər Nazirliyinin, Mərkəzi Bankın, İqtisadiyyat və Sənaye Nazirliyinin, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Dövlət Sosial Müdafiə Fondunun, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, «Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin, «AtaBank» ASC-nin nümayəndələrinin iştirak etdiyi tədbirdə dövlət qurumlarının elektron sahədəki mövcud durumu, bu istiqamətdə həyata keçirilən tədbirlər və qarşıda duran mühüm vəzifələrin icrası ilə bağlı məsələlər müzakirə olunub.*



***Vətəndaşların elektron xidmətlər barədə geniş məlumatlandırılmasına ehtiyac var***

*«Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev* tədbiri giriş sözü ilə açaraq deyib ki, demokratik və açıq cəmiyyət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil Azərbaycan son illər «Elektron hökumət» quruculuğu və elektron xidmətlərdən istifadə sahəsində çoxşaxəli tədbirlər həyata keçirir. Bu məqsədlə müvafiq qanunverici baza formalaşdırılmış, dövlət proqramları qəbul edilmişdir. «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)» «e-hökumət»in yaradılmasına doğru ilk mühüm addım olmuşdur. Proqram çərçivəsində əksər dövlət orqanlarının internet saytları yaradılmış və gov.az domenində yerləşdirilmişdir. «Elektron Azərbaycan» Dövlət Proqramında nəzərdə tutulan tədbirlər informasiya cəmiyyətinə keçidi təmin etmək üçün ilkin mərhələdə görüləcək işləri əhatə etmişdir. Proqram üzrə görülmüş işlər sayəsində respublikanın rabitə və informasiya texnologiyaları bazarında azad rəqabət mühitinin yaradılması, sahəyə investisiyaların cəlb edilməsi və özəl sektorun inkişaf etdirilməsi üzrə mühüm addımlar atılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli sərəncamı ilə «e-hökumət»ə keçid istiqamətində növbəti mühüm sənəd təsdiq edilmiş, «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)» keçid prosesini sürətləndirmişdir: «Proqramda birmənalı vurğulanır ki, informasiya cəmiyyətinin tələblərindən irəli gələn dövlət informasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, «e-imza» və «e-sənəd» dövriyyəsinin tətbiqinə, elektron və poçt-maliyyə xidmətlərinin təşkilinə, yerli istehsalın və onun ixrac potensialının gücləndirilməsinə, ayrı-ayrı sahələr üzrə İKT-nin tətbiqinin genişləndirilməsinə, internetdən istifadə səviyyəsinin artırılmasına və İKT üzrə kadr hazırlığına diqqət yetirilməsi vacibdir. Ümumiyyətlə, beynəlxalq praktikada qəbul edilmiş normalara əsasən, «Elektron hökumət» - hər hansı ölkənin dövlət strukturlarının hamısı haqqında məlumatların hər bir vətəndaş üçün açıq yerləşdirilməsi deməkdir. Burada əsas məqsəd xidmətlərin göstərilməsi üçün dövlət qulluqçuları və vətəndaşlar arasında olan «məsafəni» maksimum azaltmaq, bu münasibətləri sadələşdirmək, şəffaflaşdırmaqdır».

«Elektron hökumət» dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə işin səmərəliliyinin artırılmasına, təqdim olunan elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, istifadəçilərə dövlət qurumları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılması və yerinə yetirilmə prosedurlarının sadələşdirilməsinə imkan yaradır: «Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq «Elektron hökumət»in formalaşması üzrə digər dövlət orqanları ilə sıx fəaliyyət göstərərək müvafiq infrastrukturun yaradılmasına müvəffəq olub. Elektron imzaların istifadəsi üçün Milli Sertifikasiya Xidmətləri Mərkəzi yaradılmış, dövlət qurumlarının informasiya sistemləri arasında informasiya mübadiləsinə şərait yaradan infrastruktur qurulub. Vətəndaşların dövlət orqanları ilə birbaşa təmaslarının azaldılması üçün «bir pəncərə» prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi «Elektron hökumət portal» - www.e-gov.az istifadəyə verilib».

Qeyd olunub ki, hazırda başlıca vəzifələrdən biri vətəndaşlara hökumət orqanlarının göstərdiyi elektron xidmətlərdən istifadə vərdişləri aşılamaq, onları bu sahədə maarifləndirməkdir. Bu sahədə KİV və QHT sektorunun fəaliyyətinin gücləndirilməsinə, vətəndaşların elektron xidmətlər barədə geniş məlumatlandırılmasına ehtiyac var və «dəyirmi masa» da məhz həmin məqsədlə təşkil olunub.

***Elektron portalların texniki imkanları artırılmalıdır***

*«Professional MÜHASİB» jurnalının baş redaktoru Mehdi Babayev* bildirmişdir ki, yoxlama və nəzarət funksiyasını həyata keçi-



rən dövlət qurumları, o cümlədən Vergilər Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Statistika Komitəsi, Dövlət Əmək Müfəttişliyi Xidməti və başqa orqanlar tərəfindən təqdim olunan elektron xidmətlərdən xüsusən təsərrüfat subyektləri kimi fəaliyyət göstərən hüquqi şəxslər və fərdi sahibkarlar daha çox istifadə edirlər: «Eyni zamanda, həmin dövlət orqanlarının işinin asanlaşdırılmasında və vergi sisteminin çevik idarə edilməsində bu xidmətlərin böyük rolu vardır. İkitərəfli elektron kargüzarlıq və qarşılıqlı münasibətlərin elektronlaşdırılmasından istifadə edilməsi kütləvi hal almışdır. Buna baxmayaraq, dövlət strukturları tərəfindən təqdim olunan elektron xidmətlərlə bağlı işçi proqramlara onların təkmilləşdirilməsi məqsədilə tələbatdan asılı olaraq daim dəyişikliklər və əlavələr edilməsi zəruridir».

M.Babayev qeyd etmişdir ki, elektron portalların texniki imkanları artırılmalı və vergi ödəyicilərinin tələbləri nəzərə alınmalıdır ki, proqram təminatı onun istifadəçilərinin işinə tam yaramış olsun: «Məsələn, Vergilər Nazirliyinin «İnternet Vergi İdarəsi»nin xidmətlərindən istifadə edərkən vergi ödəyicisinin onlayn karğuzarlıq qutusuna vergilərin hesablanması və digər aidiyyəti məsələlərlə əlaqədar uyğunsuzluq məktubları göndərilir və 5 gün ərzində bu uyğunsuzluqlara aydınlıq gətirilməsi tələb olunur. Lakin vergi ödəyicisinin mütəmadi olaraq e-kargüzarlığa elektron qaydada daxil olma imkanı olmaya bilər. Vergi orqanından gələn məktublara 5 gün müddətində vergi ödəyicisi tərəfindən cavab verilmədikdə əlavə vergi hesablamaları və faizlər tətbiq oluna bilər, halbuki, vergi ödəyicisinin bu məktublardan vaxtında məlumatı olsa idi, müvafiq izahat və sənədlər təqdim etməklə sorğunu cavablandıra bilərdi. Ona görə də vergi ödəyicisinə göndərilən elektron məktubların vaxtında oxunmasının təmin olunması məqsədilə SMS məlumatlandırma sisteminin yaradılması yaxşı olardı. Vergi orqanından vergi ödəyicisinə hər hansı elektron məktub göndərildikdə avtomatik rejimdə bu barədə SMS göndərilməsi həm vətəndaşların hüquqlarının müdafiəsi, həm də vergi orqanı tərəfindən vergilərin daha düzgün hesablanmasını təmin edə bilər. Eyni halı DSMF-yə hesabatların göndərilməsi ilə bağlı elektron xidmətlərdə də görmək olar».

***İnternet Vergi İdarəsi vasitəsilə mühüm elektron xidmətlər göstərilir***

*Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Dövlət qeydiyyatı və uçotun təşkili idarəsinin rəisi İlkin Həsənov* son illərdə Vergilər Nazirliyi tərəfindən informasiya-kommunikasiya tex-



nologiyalarının tətbiqi istiqamətində görülən mühüm işlərdən danışıb. Qeyd edib ki, vergi inzibatçılığının bütün səviyyələrində məlumat mübadiləsi korporativ şəbəkə sistemi üzərindən Azərbaycan Respublikasının Vergilər Nazirliyinin «Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi» (AVİS) vasitəsilə həyata keçirilir: «AVİS 2006-cı ildən istifadəyə verilib. Bu sistem vergi ödəyiciləri ilə bilavasitə işləyən yerli vergi orqanlarının funksional fəaliyyətinin avtomatlaşdırılması, digər dövlət qurumları ilə inteqrasiya, eyni zamanda müxtəlif iqtisadi təhlillərin və proqnozlaşdırmanın aparılması imkanlarına malikdir. AVİS Vergilər Nazirliyinin bütün strukturlarına vahid informasiya məkanında məlumatların saxlanılması və emalı imkanını verir.

*Davamı 4-cü səhifədə*

# «Elektron xidmətlər: səmərəli idarəçilik və yeni nailiyyətlər»

*əvvəli 3-cü səhifədə*

Sistemin əsas üstünlüklərindən biri digər qurumların informasiya sistemləri ilə (İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi, Baş Xəzinədarlıq, Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Sosial Müdafiə Fondu, banklar və s.) qarşılıqlı effektiv məlumatlar mübadiləsi etməyə imkan verməsidir».

İdarə rəisinin sözlərinə görə, vergi inzibatçılığının inkişafında əlamətdar hadisələrdən biri də respublikada ilk dəfə elektron bəyannamələrin tətbiqinə başlanılmasıdır: «Vergilər Nazirliyi tərəfindən Bəyannamə Tərtibatı Proqramı (BTP) hazırlanıb, vergi bəyannamələrinin elektron formada təqdim olunmasını təmin etmək üçün 2007-ci ildə e-taxes.gov.az - İnternet Vergi İdarəsi istifadəyə verilib və onun vasitəsilə bir sıra mühüm elektron xidmətlər göstərilir. Onların sırasında elektron bəyannamə, sahibkarlıq subyektlərinin «bir pəncərə» prinsipi ilə dövlət qeydiyyatı (o cümlədən fiziki və hüquqi şəxslərin onlayn qeydiyyatı), ƏDV-nin depozit hesabı, banklarla elektron mübadilə, elektron vergi hesab-fakturası, onlayn kargüzarlıq əsas xidmətlər sırasındadır. İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq» altsistemi vasitəsilə vətəndaşlar və vergi ödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinin aparılması təmin edilir. Altsistem Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin daxili kargüzarlıq sisteminə inteqrasiya olunub. Ona görə də istifadəçilər göndərdikləri sənədin vergi orqanı daxilində hərəkətini onlayn rejimdə izləyə və icraçının telefonunu öyrənərək onunla birbaşa telefon əlaqəsi yarada bilir. Bu sistem üzərindən göndərilən sənəd rəsmi statusa malikdir. Sistem daxilində hər bir istifadəçi üçün «fərdi elektron qutu (e-qutu)» ayrılıb. Vergi orqanlarından və digər ödəyicilərdən göndərilən və qəbul edilən sənədlər həmin e-qutuda toplanılır».

Vergi sistemində tətbiq olunan e-bəyannamə sisteminin üstünlükləri barədə bildirilib ki, bu sistem vergi bəyannamələrinin elektron formada vergi orqanına göndərilməsini nəzərdə tutur və bəyannamələrin offlayn rejimdə BTP vasitəsilə tərtib edilməsi və onlayn rejimdə İnternet Vergi İdarəsi vasitəsilə göndərilməsi mümkündür: «Bu sistemin hesabına vergi ödəyicisi vergi orqanına gəlmədən və vergi orqanının əməkdaşı ilə təmasa girmədən, tam şəffaf şəkildə, onun üçün rahat olan mühitdə və istədiyi zaman bəyannaməni tərtib edərək internet vasitəsilə təqdim etmək, öz şəxsi hesab vərəqəsinə baxa bilmək və büdcəyə olan borcları barədə məlumatlar əldə etmək imkanı qazanır. E-bəyannamə sistemi həm də vergi orqanı ilə vergi ödəyicisi arasında əlaqələrin tamamilə şəffaflaşmasına gətirib çıxarır».

Qeyd olunub ki, elektron bəyannamə sisteminin tətbiqi vergi ödəyicilərində böyük maraq doğurur. İndiyədək 6,8 milyon bəyannamə, o cümlədən cari ilin 10 ayında təqdim edilmiş bəyannamələrin 90,4%-i, ƏDV bəyannamələrinin isə 99,8%-i elektron formada təqdim edilib: «Elektron hökumətin əsas elementlərindən olan «bir pəncərə» sisteminin tətbiqi investisiya mühitini daha da yaxşılaşdırıb, sahibkarların dövlət qurumlarından asılılığını azaldıb, çoxpilləli qeydiyyat prosedurlarını sadələşdirib».

Bildirilib ki, 2011-ci il iyulun 1-dən fiziki şəxslər vergi orqanlarına getmədən, vaxt itkisinə yol vermədən Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində istifadəçi kodu və şifrə-parol vasitəsilə uçota alınırlar: «E-qeydiyyatın tətbiqi nəticəsində fiziki şəxslərin vergi uçotuna alınmasına sərf edilən müddət 2 gündən bir neçə dəqiqəyədək qısaldılıb. Kommersiya hüquqi şəxslərin e-qeydiyyatının aparılmasına 2012-ci ildən başlanılıb. Hazırda hüquqi şəxslərin e-qeydiyyat prosedurları yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətləri əhatə etməklə sürətli və adi qaydada aparılır. Məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının tətbiq edilməsi biznesə başlama sahəsində ölkəmizdə aparılan uğurlu islahatların növbəti mərhələsidir. Vergi sistemində baş verən bu mühüm tədbirlər ölkəmizin Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən «Doing Business 2015» hesabatında 189 ölkə arasında 8 pillə irəliləyərək 80-ci yerə yüksəlməsinə səbəb olub. Azərbaycan bir sıra göstəricilər üzrə qabaqcıl ölkələr sırasında qərarlaşıb. Biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən yeni hesabatda ölkəmiz ən çox islahat aparan 10 ölkə sırasında 8-ci yerdə mövqe tutub. Respublikamız hesabatda 3 göstərici üzrə («Əmlakın qeydiyyatı», «Biznesə başlama» və «Vergilərin ödənişi») həyata keçirilən islahatlar üzrə ən yaxşı göstəricisi olan ölkələr sırasındadır. Ötənilki nəticələrlə müqayisədə Azərbaycan vergilərin ödənişi indeksi üzrə 44 pillə irəliləyərək 77-ci yerdən 33-cü yerə yüksəlib, «Biznesə başlama» indikatoru üzrə isə 12-ci yerdəyik.

2012-ci ilin aprel ayından vergi ödənişlərinin onlayn formada həyata keçirilməsi xidməti istifadəyə verilib. Bunun sayəsində vergi, rüsum, icarə haqqı və digər ödənişlər elektron formada aparılır: «Mərkəzi Bankla birlikdə Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin (KÖMİS) resurslarından istifadə edilməklə proqram interfeysləri, ötürüləcək məlumatların və istifadə olunacaq klassifikatorların formatları hazırlanıb. Elektron ödəniş sisteminin yaradılması layihəsi üzrə müvafiq proqram servislərinin test rejimində yoxlanılması işləri başa çatdırılıb».

Vergilər Nazirliyinin Niderland Krallığının Vergi Administrasiyası ilə birgə reallaşdırdığı e-audit layihəsi barədə bildirilib ki, layihə respublikanın vergi sisteminin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. E-auditin tətbiqinin ilkin nəticələri göstərir ki, yoxlamaya sərf olunan vaxt və insan resurslarının həcmi azalıb. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 fevral tarixli fərmanına müvafiq olaraq «ASAN ödəniş» sisteminin yaradılması ilə əlaqədar zəruri tədbirlər görülür. Bütün bunlar islahatların bundan sonra da sürətlə aparılmasına və respublikamızda biznes mühitinin yaxşılaşdırılmasına əminlik yaradır.

***Vergilər Nazirliyi mərkəzi icra hakimiyyəti orqanları arasında ən çox elektron xidmət göstərən dövlət orqanıdır***

*Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin şöbə rəisi Azər Şirinov* vergi sistemində tətbiq olunan



elektron xidmətlərin əhəmiyyətinə toxunaraq qeyd edib ki, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş «Elektron xidmət növlərinin siyahısı»nda Vergilər Nazirliyi tərəfindən 60 elektron xidmətin göstərilməsi müəyyən edilib ki, hazırda onların 58-si aktiv fəaliyyət göstərir. Bununla da Vergilər Nazirliyi mərkəzi icra hakimiyyəti orqanları arasında ən çox elektron xidmət göstərən dövlət orqanıdır: «Nazirliyin rəsmi internet səhifəsində ayrıca «Elektron xidmətlər» bölməsi yaradılıb, göstərilən bütün elektron xidmətlər, onların inzibati reqlamentləri, istifadə təlimatları burada yerləşdirilib. Bununla yanaşı, Vergilər Nazirliyi tərəfindən daha bir neçə elektron xidmət layihəsi hazırlanıb və onların da «Elektron xidmət növlərinin siyahısı»na əlavə edilməsi nəzərdə tutulub. Bunlara «Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu», «Azərbaycan Respublikasında kommersiya hüquqi şəxsin adının bron (rezerv) edilməsi» və «Çağrı Mərkəzi vasitəsi ilə sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi» daxildir.

Sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, vergilərin könüllü ödənilməsi sisteminin inkişafı, o cümlədən elektron xidmətlərdən əhalinin istifadəsinin asanlaşdırılması məqsədilə Vergilər Nazirliyi tərəfindən, əsasən, vergi orqanı olmayan şəhər və rayonlarda istifadəyə verilən vergi ödəyicilərinə xidmət mərkəzlərinin sayı 40-a çatıb, hazırda onların sayının artırılması, xidmətlərin spektrinin və funksionallığının genişləndirilməsi, vergi ödəyicisinin məmnunluq səviyyəsinin yüksəldilməsi istiqamətində işlər davam etdirilir. Bu il noyabr ayının 3-də Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yeni xidmət mərkəzi istifadəyə verilib.

Qeyd olunub ki, 2014-cü ilin 11 ayında vergi ödəyicilərinə xidmət strukturları tərəfindən 279859 vergi ödəyicisi qəbul edilib, onlara 362967 sayda müxtəlif növ vergi xidmətləri göstərilib. Həmin xidmətlərin 106104-nü və ya 29,2%-ni elektron xidmətlər təşkil edir. Bundan başqa, əhalinin elektron xidmətlərə müstəqil çıxışı məqsədilə bütün xidmət mərkəzlərində özünəxidmət kompüterləri quraşdırılıb.

Vergilər Nazirliyinin göstərdiyi elektron xidmətlərdən, o cümlədən əmək müqavilələsinin elektron informasiya sistemində qeydiyyata alınması, nağdsız ödənişlərin, eləcə də POS-terminallardan istifadənin genişləndirilməsi məqsədilə məlumatlandırma, maarifləndirmə və təbliğati tədbirlər həyata keçirilir. Nazirliyin rəsmi internet səhifəsində, Facebook və Twitter sosial şəbəkələrindəki səhifələrində, Youtube video hostinq serverində və video.az saytında elektron xidmətlər, onlardan istifadə barədə ictimaiyyətin məlumatlandırılması həyata keçirilir.

Bildirilib ki, respublika ərazisində nağdsız ödənişlərin, eləcə də POS-terminallardan istifadənin genişləndirilməsi məqsədilə bu ilin avqust ayından iri ticarət mərkəzlərində «Sürətli keçid üçün nağdsız ödəyin» layihəsinin tətbiqinə başlanılıb. Layihənin tətbiqində məqsəd təsərrüfat subyektlərində (obyektlərində) ayrılmış xüsusi kassalarda digər kassalardan fərqli olaraq yalnız nağdsız ödənişlərin qəbul edilərək sürətli keçidin təmin edilməsi, bununla da əhalı arasında nağdsız ödəmənin stimullaşdırılmasıdır.

***İnformasiya təhlükəsizliyinin təmin olunması üçün milli məhsullardan istifadə olunacaq***

*Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktor müavini Vahid Qurbanlı* «Elektron hökumət» quruculuğuna müvafiq olaraq Milli Ödəniş Sisteminin infrastruktur imkanları barədə bildirib ki, Mərkəzi Bank qanunla müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində ölkədə ödəniş sistemlərinin, o cümlədən hesablaşma və klirinq sistemlərinin yaradılması və onların fəaliyyətinin təşkil edilməsini təmin edən dövlət orqanıdır: «Hələ 2000-ci ilin əvvəllərində beynəlxalq standartlara cavab verən, əsasını iri və təcili ödənişlər sistemi və xırda ödənişlər üzrə hesablaşma klirinq sistemi təşkil edən Milli Ödəniş Sistemi infrastrukturu yaradılaraq istifadəyə verilib. Yaradılmış infrastrukturun sabit, etibarlı fəaliyyətinin təmin olunması ilə yanaşı, onun nüvəsini təşkil edən əsas komponentlərin beynəlxalq aləmdə ödəniş sistemləri sahəsində, həmçinin informasiya texnologiyaları nailiyyətlərinin tətbiqi istiqamətində baş verən yeniliklər nəzərə alınmaqla inkişaf etdirilməsi də daim diqqət mərkəzindədir.

Bu istiqamətdə həyata keçirilən əsas tədbirlərdən biri də icrasına 2014-cü ildə başlanılmış «Milli Ödəniş Sisteminin Modernizasiyası» layihəsidir. Layihə üzrə görüləcək işlər nəticəsində iri və təcili ödənişlər sistemi beynəlxalq infrastrukturlarla yanaşı, rabitə və yüksək texnologiyalar nazirliyi tərəfindən təqdim olunan lokal telekommunikasiya şəbəkəsi üzərindən də fəaliyyət göstərəcək, informasiya təhlükəsizliyinin təmin olunması üçün milli məhsullardan da istifadə olunacaqdır. Xırda ödənişlər üzrə hesablaşma klirinq sisteminin funksional imkanları təkmilləşdiriləcək beynəlxalq praktikada geniş istifadə olunan birbaşa debitləşmə ödəniş aləti ilə əməliyyatların aparılması imkanı yaradılacaqdır. Qeyd olunan tədbirlərlə yanaşı, ödəniş sistemlərinin sabit və etibarlı fəaliyyətinin təmin olunması məqsədilə Mərkəzi Bankın ehtiyat mərkəz infrastrukturu müvafiq standartlar əsasında təkmilləşdiriləcəkdir».

Bildirilib ki, Mərkəzi Bankın fəaliyyətində ölkədə yaradılmış Milli Ödəniş Sistemi infrastrukturundan daha səmərəli istifadə edilməsi, əhali və iqtisadi subyektlər arasında nağdsız hesablaşmaların genişləndirilməsi və ölkənin bütün regionlarında maliyyə xidmətlərinə çıxış imkanlarının yaradılması əsas prioritetlərdəndir. Hazırda layihəyə uyğun olaraq İpoteka Fondunun portala inteqrasiya olunması üzərində işlər davam etdirilir: «İpoteka kreditlərinin verilməsi üzrə fəaliyyət göstərən 28 müvəkkil kredit təşkilatından 13-nün vasitəsilə borcalanlar artıq bu xidmətdən istifadə edə bilərlər. Digər müvəkkil banklar ilə inteqrasiya üzrə işlər



növbəti ilin yanvar ayı ərzində başa çatdırılacaqdır. Yaradılmış imkandan istifadə etməklə vətəndaşlar ipoteka kreditləri üzrə ödənişlərini, əvvəlki şərtlərdən fərqli olaraq, yalnız kredit aldıqları bankda deyil, eləcə də 42 bankın və «Azərpoçt» MMC-nin Hökümət Ödəniş Portalına qoşulmuş 1500-dən çox filial və şöbələrində nağd şəkildə ödəyə bilərlər. Bununla yanaşı, portalın (www.gpp.az) internet resurslarından istifadə etməklə ödəniş kartları vasitəsilə nağdsız ödəniş etmək mümkündür».

Mərkəzi Bankın nümayəndəsinin sözlərinə görə, hazırda Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nəzdində yaradılmış «ASAN xidmət» mərkəzlərində fəaliyyət göstərən dövlət orqanları tərəfindən göstərilən xidmətlər üzrə ödənişlərin HÖP vasitəsilə qəbul olunması, həmçinin «ASAN ödəniş» informasiya sisteminin mövcud infrastruktura inteqrasiya olunması istiqamətində intensiv işlər aparılır. Layihənin gələn ilə planlaşdırılan növbəti mərhələlərində Nəqliyyat, Təhsil, Energetika nazirlikləri və Əmlak Məsələləri Dövlət Komitəsi HÖP-ə inteqrasiya olunacaqdır.

***«Elektron hökumət» portalı üzərindən 387 elektron xidmət göstərilir***

*Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzinin baş mütəxəssisi, Dövlət reyestri şöbəsinin rəisi İlqar Abdullayev* bildirib ki, «Elektron hökumət» modern və çevik idarəetmənin təşkili, dövlət orqanlarının fəaliyyətinin səmərəsinin artırılması, şəffaflığın təmin edilməsi, bürokratik əngəllərin aradan qaldırılması və əhaliyə elektron xidmətlərin göstərilməsində mühüm vasitədir. Ötən 2 il ərzində portala 47 qurum qoşulub və 387 elektron xidmət istifadəyə verilib: «Elektron hökumət» quruculuğu istiqamətində ilk addımlar sosial xidmətlərin elektronlaşması və «bir pəncərə» prinsipi ilə portalda birləşməsi üzərində cəmlənmişdi. İndi isə təqdim olunan xidmətlərin sadələşdirilməsi, eləcə



də istifadəçi imkanlarının artırılması istiqamətində yüksək templə işlər aparılır və portalın sosial əhəmiyyətli funksionallıqlarının artırılmasına xüsusi önəm verilir. Hazırda portala rahat və təhlükəsiz girişin təmin olunması məqsədilə e-imza kartı, asan imza, Mobil imza və kod-parol autentifikasiya vasitələrindən istifadə edilir».

«Elektron hökumət» portalı üzərindən təqdim edilən xidmətlərin istifadəsi ilə əlaqədar vətəndaşlar tərəfindən xidmət təminatçısı ilə əks-əlaqə yaradılması, təklif, şikayət və s. xarakterli müraciətlərin edilməsi, sorğuların xidmət təminatçısı tərəfindən cavablandırılması, xidmətdən istifadə zamanı baş verən problemlərdən vaxtında xəbər tutulması məqsədilə portalda «Əks-əlaqə» və «Müraciətlər» adlı xüsusi bölmə hazırlanaraq noyabr ayından istifadəyə verilib. «Müraciətlər» bölməsinə daxil olmaqla (həmçinin hər bir e-xidmət səhifəsində olan «Əks-əlaqə» düyməsini seçməklə) istənilən elektron xidmət ilə bağlı müraciətlər portal üzərindən xidmət təminatçısına ünvanlanır və verilən cavablar izlənilir.

İndiyədək «Elektron hökumət» portalından istifadə edənlərin sayı 1.067.420-dir, elektron xidmətlərdən isə 5.812.582 dəfə istifadə olunub.

Qeyd olunub ki, RYTN-də fəaliyyət göstərən Milli Sertifikat Mərkəzi tərəfindən vətəndaşlara, dövlət qurumlarına, yerli icra hakimiyyəti orqanlarına, biznes strukturlarında işləyən hüquqi və fiziki şəxslərə 26027 e-imza verilib.

E-xidmətlərlə bağlı mövcud problemlərə toxunularaq bildirilib ki, Nazirlər Kabineti tərəfindən 451 e-xidmətin göstərilməsinin təmin olunması təsdiq edildiyi halda, hələlik onlardan 312-si tam hazırlanıb elektron portala inteqrasiya olunub. Hazırda digər xidmətlərin də istifadəyə verilməsi üzərində işlər aparılır.

***Elektron xidmətlərin təşkilinin və göstərilməsinin qiymətləndirilməsi aparılır»***

*Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron xidmətlərin inkişafı və sosial innovasiyalar şöbəsinin sektor müdiri Ulduzə Xəlilova* bildirib ki, elektron xidmətlərin dövlət idarəçiliyinin səmərəli təşkil edilməsi baxımından əhəmiyyəti olduqca böyükdür və təmsil etdiyi agentlik yarandığı gündən elektron xidmətlərdən istifadəyə böyük diqqət ayırır. «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsi ilə yanaşı, agentliyin əsas fəaliyyət istiqamətləri dövlət orqanlarının



informasiya bazalarının qarşılıqlı inteqrasiyasını və elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini əhatə edir. Dövlət Agentliyi tərəfindən artıq ikinci ildir ki, mərkəzi icra hakimiyyəti orqanları tərəfindən göstərilən elektron xidmətlərin təşkilinin və icrasının qiymətləndirilməsi həyata keçirilir: «Bu zaman dövlət orqanlarının rəsmi internet saytının «Elektron xidmətlər» bölməsində və «Elektron hökumət» portalında hər bir elektron xidmətin göstərilmə vəziyyəti barədə məlumatlar toplanır, xidmətlərin keyfiyyətli və kəsintisiz göstərilməsi üçün zəruri texniki imkanların öyrənilməsi məqsədilə dövlət orqanlarında yerində baxış keçirilir. Hər bir xidmət «Elektronlaşma və əlaqəlilik səviyyəsi», «İnformasiya açıqlığı və əldəolunma səviyyəsi» və «İstifadə rahatlığı səviyyəsi» meyarları üzrə qiymətləndirilir. Qiymətləndirmənin yekunu olaraq hər bir dövlət orqanı üzrə rəy hazırlanır və həmin rəydə xidmətlərin daha yaxşı təşkil edilməsi ilə bağlı konkret təkliflər qeyd olunur. Ötənilki nəticələrlə builki göstəriciləri müqayisə etdikdə məlum olur ki, dövlət orqanları verilən təklifləri müsbət qarşılayır və bunun nəticəsidir ki, xidmətlərin «Elektron hökumət» portalına yerləşdirilməsi, xidmətlər üzrə məlumatlandırma, istifadəçi təlimatlarının təqdim edilməsi kimi məsələlər üzrə müsbət irəliləyiş müşahidə olunur. İnformasiya resurslarının inteqrasiyası ilə bağlı dövlət orqanları tərəfindən konkret tədbirlərin həyata keçirilməsi nəticədə elektronlaşma səviyyəsinin yüksəlməsinə və sənədləşmə prosesinin sadələşməsinə gətirib çıxarır».

Elektron xidmətlərin təşkilində elektron imza və elektron sənəddən istifadə sahəsində müəyyən çatışmazlıqların müşahidə edildiyi də vurğulanıb:

«Xidmətlərin təşkilində elektron imzadan istifadə qənaətbəxş səviyyədə deyildir. Xidmət nəticələrinin elektron sənəd formasında təqdim olunması ilə bağlı da problemlər müşahidə edilməkdədir. Elektron imza və elektron sənəd tətbiq edilmədən xidmət prosesinin tam dövrünün elektron təşkili haqqında danışmaq olmaz. Bu sahədə görülməli işlər çoxdur və aşkar edilmiş problemlərlə bağlı Dövlət Agentliyi tərəfindən müəyyən tədbirlər həyata keçirilməkdədir».

«ASAN ödəniş» sistemi haqqında isə bildirilib ki, bu, inzibati tənbeh tətbiq edilməsi barədə qərarların vətəndaşa elektron qaydada göndərilməsini, inzibati cərimələrin və məhkəmə qərarlarının icrası ilə əlaqədar ödənilməli olan vəsaitlərin elektron qaydada ödənilməsini təmin edən çoxfunksiyalı ödəniş sistemidir.

*davamı 5-ci səhifədə*

# «Elektron xidmətlər: səmərəli idarəçilik və yeni nailiyyətlər»

*əvvəli 4-cü səhifədə*

Bu sistemdən istifadə etməklə bütün ödənişləri «ASAN ödəniş» portalından bank kartı vasitəsilə və ya əhalinin gur olduğu yerlərdə quraşdırılan «ASAN ödəniş» terminallarında nağd və ya bank kartı ilə yerinə yetirmək mümkündür.

Dövlət Agentliyi xidmətlərin elektronlaşması istiqamətində bütün təşəbbüsləri müsbət qiymətləndirir və elektron xidmətlərin daha təkmil, daha müasir, daha rahat və daha asan formada təqdim edilməsi, vətəndaş məmnunluğuna nail olunması başlıca məqsəddir.

***DSMF-nin göstərdiyi elektron xidmətlər ən çox istifadə olunanlar sırasındadır***

*Dövlət Sosial Müdafiə Fondunun İnformasiya texnologiyaları şöbəsinin müdiri Sabir Qocayev* bildirib ki, «Elektron hökümət» portalının statistikasına əsasən, DSMF-nin göstərdiyi elektron xidmətlər ən çox istifadə olunan xidmətlər sırasında ilk yerləri tutur. Fond müntəzəm olaraq elektron xidmətlərin ayrı-ayrı bölgələrdə təşviqi məqsədilə maarifləndirmə xarakterli tədbirlər keçirir. Müasir informasiya texnologiyalarından istifadə etməklə interaktiv və informativ elektron xidmətlər



vasitəsilə əhalini maraqlandıran, sığorta-pensiya sisteminə aid bütün məsələlərə aydınlıq gətirilir. Bu məqsədlə 2014-cü ildə Bakıda dörd, regionlarda isə 16 təqdimat edilib. Bununla yanaşı, «Sığorta-pensiya sistemində elektron xidmətlər şəffaflığın əsas vasitəsidir» mövzusunda KİV arasında müsabiqə keçirilib. Bu mövzuda xüsusi reklam çarxı hazırlanaraq televiziya kanallarında yayımlanıb.

Fondun informasiya sistemləri ölkədə «bir pəncərə» prinsipi əsasında elektron xidmətlərin təqdim olunduğu «Elektron hökumət» portalına, Daxili İşlər Nazirliyinin İdarələrarası Avtomatlaşdırılmış Məlumat-Axtarış Sisteminə, Mərkəzi Bankın Hökumət Ödəniş Portalına və digər orqanların informasiya ehtiyatlarına inteqrasiya olunur. Bununla da DMSF-nin elektron xidmətlərindən istifadə zamanı vətəndaşlardan tələb olunan əlavə məlumat və sənədlərin sayı azaldılır və bu proses mümkün qədər avtomatlaşdırılır.

Vətəndaşlara dair zəruri məlumatların digər qurumların informasiya sistemlərindən avtomatik əldə olunması fondun fəaliyyətinin şəffaflaşdırılması ilə yanaşı, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksək səviyyədə saxlanılmasına imkan yaradır. 2014-cü ilin 11 ayında fondun göstərdiyi elektron xidmətlərdən ümumilikdə 1.222.692 dəfə istifadə olunub.

Bildirilib ki, hazırda Dövlət Sosial Müdafiə Fondunda ölkə əhalisinin 43%-dən çoxunu əhatə edən geniş məlumat bazası var: «Burada 1 milyon 285 min pensiyaçı və 2 milyon 900 mindən artıq sığortaolunan barədə zəruri məlumatlar toplanılıb. Bazadan istifadə etməklə fond öz veb səhifəsi və «Elektron hökumət» portalı vasitəsilə pensiyaçılara, sığortaedənlərə və sığortaolunanlara çoxsaylı elektron xidmətlər göstərir. Dövlət sosial sığorta şəhadətnaməsinin dəyişdirilməsi və ya dublikatın verilməsi üçün müraciət, haqq-hesab cədvəllərinin elektron qaydada təqdim edilməsi və məcburi dövlət sosial sığorta haqlarının onlayn ödənişi, pensiyalara dair məlumatların təqdim edilməsi, pensiya kalkulyatoru və onlayn pensiya təyinatı xidmətləri e-xidmətlər sırasında mühüm yer tutur. Məcburi dövlət sosial sığorta haqlarının onlayn ödənişi və hesabatların elektron qəbulu istiqamətində əhəmiyyətli işlər görülür. Bu xidmətdən istifadə olunmaqla 2014-cü ilin 11 ayı ərzində sığortaedənlər tərəfindən 485.389 ödəniş həyata keçirilib. Görülən işlərin nəticəsində «Doing Business 2015» hesabatında məcburi dövlət sosial sığorta haqlarının ödənişi və hesabat sisteminin avtomatlaşdırılması sahəsində Azərbaycan 32 pillə irəliləyib».

Fondun 2013-cü ildən tətbiq etdiyi Çağrı Mərkəzi vasitəsilə avtomatlaşdırılmış pensiya təyinatı həyata keçirilir. Pensiya yaşına çatmış vətəndaşa 190 nömrəsinə zəng vurmaqla və yalnız şəxsiyyət vəsiqəsinin nömrəsini təqdim etməklə real vaxt rejiminndə pensiya təyin edilir. Sistem vasitəsilə vətəndaş pensiyasının məbləği, plastik pensiya kartını alacağı bank şöbəsinin ünvanı haqqında məlumatı dərhal əldə edir. Bütün proses cəmi bir neçə dəqiqə vaxt aparır.

Bildirilib ki, hazırda Dövlət Sosial Müdafiə Fondu sistemində uçotda olan istənilən şəxs «Elektron hökumət portalı» üzərindən ona dair fondun informasiya ehtiyatında toplanmış fərdi məlumatları onlayn rejimdə əldə etmək imkanına malikdir. Hər bir sığortaedən «Hökumət ödənişləri» və «Elektron hökumət» portalları vasitəsilə fondun informasiya sistemlərinə müraciət edərək məcburi dövlət sosial sığorta haqları üzrə onlayn rejimdə ödəniş edir, öz əməkdaşlarını sığortaolunan kimi onlayn uçota salır, hesabatlar və haqq-hesab cədvəllərini ofisdən kənara çıxmadan internet üzərindən təqdim edə bilir.

***Əmək münasibətləri elektron müstəvidə qeydiyyata alınır***

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) İnformasiya Texnologiyaları şöbəsinin sektor müdiri Kənan Əkpərov* deyib ki, ölkədə əmək münasibətlərinin elektron müstəvidə qeydiyyata alınmaqla şəffaflaşdırılması məqsədilə işçi və işəgötürənlər arasında bağlanan əmək müqavilələrinin, bu müqavilələrə dəyişiklik edilməsi və ya xitam verilməsinin müvafiq bildiriş formalarında elektron qeydiyyatdan keçirilməsi üçün ƏƏSMN tərəfindən elektron informasiya sistemi istifadəyə verilib: «Bu xidmət hazırlanarkən müxtəlif qurumlarla əməkdaşlıq etmişik ki, mötəbər bir xidmət ortaya qoyaq. İndiyədək bu xidmətdən 1 milyon 700 minə yaxın istifadəçi istifadə edib. Bundan əlavə, əmək müqaviləsi bildirişi barədə məlumatların işçilər tərəfindən əldə olunmasını təmin edən elektron



xidmət də istifadəyə verilib. «İş yerinə dair arayış» adlanan yeni elektron xidmətin sayəsində bir çox prosedurlar sadələşdiriləcək və işçilərin vaxtına və maliyyə vəsaitlərinə qənaət ediləcək».

ƏƏSMN tərəfindən vətəndaşların elektron xidmətlərdən istifadə imkanlarının təkmilləşdirilməsini diqqətdə saxlamaq məqsədilə «Elektron xidmətlər portalı» istifadəyə verilib və digər sahələrin fəaliyyət proseslərinin avtomatlaşdırılması ilə bağlı işlər aparılır: «Nazirliyimiz sosial cəhətdən həssas insanlarla işləyir və bu sahədə fəaliyyətimiz ölkə əhalisinin əksəriyyətini əhatə edir. Ünvanlı sosial yardımların, sosial müavinətlərin avtomatlaşdırılması istiqamətində müəyyən işlər görüləcək. Bu sahəni tam avtomatlaşdırmaq üçün bir çox qurumun informasiya ehtiyatları ilə inteqrasiya aparmalıyıq. Lakin tərəfdaş qurumların bəzilərində müəyyən problemlər olduğundan, bunu həyata keçirə bilmirik».

Qeyd edilib ki, istifadəyə verilmiş Tibbi-Sosial Ekspertiza və Əlillərin Reabilitasiyası İnformasiya Sistemi vasitəsilə əlillik müayinələrinin nəticələri ilə bağlı elektron məlumat bazası yaradılıb: «Yeni məlumat bazası əlillik müayinələrinin nəticələri ilə bağlı aidiyyəti qurumlar arasında elektron məlumat mübadiləsinə, həmçinin vətəndaşlara əlilliyə görə pensiya və ya müavinət təyin olunması üçün müvafiq informasiyaların aidiyyəti qurumlar tərəfindən elektron qaydada əldə edilməsinə imkan yaradacaq. Bu isə əlillik təyinatları zamanı şəffaflığın təmin olunmasına və məmur-vətəndaş təmaslarının minimuma endirilməsinə gətirib çıxaracaq. Yeni informasiya sistemi istifadəyə verildikdən sonra vətəndaşlar əlilliklə bağlı müayinələrinin nəticələri barədə məlumatları elektron qaydada əldə edə biləcəklər. Beləliklə, əlillik müayinələri barədə elektron arayışların verilməsi təmin ediləcək».

***Vətəndaşlar onlayn rejimdə qəbula yazıla bilirlər***

*İqtisadiyyat və Sənaye Nazirliyinin (İSN) Sahibkarlığın inkişafı siyasəti şöbəsinin sektor müdiri Elçin İbrahimov* qeyd



edib ki, İSN-in www.economy.gov.az internet səhifəsində elektron xidmətlər bölməsi yaradılıb, nazirlik tərəfindən vətəndaşlara (xüsusilə sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara) 28 elektron xidmət göstərilir: «Xidmətlərin 7-si interaktiv, 21-i isə informativ elektron xidmətlərdir. Bu xidmətlər nazirliyin strukturuna daxil olan və tabeliyindəki qurumların internet səhifələrində yaradılmış «Elektron xidmətlər» bölmələri vasitəsilə reallaşdırılır. İnteraktiv e-xidmətlərin böyük hissəsi (lisenziyaların, malların mənşə və keyfiyyət sertifikatlarının verilməsi, Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı ilə məşğul olan istehsal və emal müəssisələrinə təsdiqedici kod nömrəsinin verilməsi, kommersiya hüquqi şəxslərin qrant müqavilələrinin qeydiyyatı, inzibati cərimələrin və maliyyə sanksiyalarının internet vasitəsilə ödənilməsi) «Elektron hökumət» portalında (www.e-gov.az) da yerləşdirilmişdir».

Qeyd olunub ki, 2014-cü ilin yanvar-noyabr aylarında İqtisadiyyat və Sənaye Nazirliyinə malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi üçün 12 mindən çox, kommersiya hüquqi şəxslərə münasibətdə qrant müqavilələrinin qeydiyyata alınması üçün 80, əlvan metal, tərkibində qiymətli metallar və daşlar olan sənaye və istehsalat tullantılarının tədarükü, emalı və satışı fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi üçün 5, dövlət nəzarəti tədbirləri zamanı tətbiq edilən inzibati cərimələrin və maliyyə sanksiyalarının ödənilməsi üçün 48 elektron müraciət daxil olmuşdur. Bu müraciətlərin icrası qanunvericiliyə uyğun olaraq on-line rejimində təmin edilib: «Nazirliyin Telefon Məlumat Mərkəzi «195-2» nömrəsi vasitəsilə fəaliyyət göstərməklə, artıq 29 minə yaxın müraciəti cavablandırmışdır. Bu isə sahibkarlara zəruri olan informasiyanın sadəcə bir zəng ilə əldə olunmasına şərait yaradan bir platformanın tərkib hissəsidir. Bununla yanaşı, vətəndaşların hər bir müraciətinə, o cümlədən elektron şəkildə göndərilmiş ərizə və şikayətlərinə diqqətlə yanaşılmaqla, qanunvericiliyin tələbləri çərçivəsində onlara baxılır və elektron şəkildə ünvanlarına müvafiq məlumatlar göndərilir».

Bildirilib ki, İSN-in elektron informasiya resursları vasitəsilə vətəndaşların onlayn rejimdə qəbula yazılmaları, müraciətlərinin onlayn rejimdə qəbulu və cavablandırılması, nazirliyin məsul işçiləri ilə canlı videoəlaqə, vətəndaşlarla onlayn rejimdə sual-cavab və ən çox verilən suallar sistemi, dövlət proqramlarının icrası barədə informasiya sistemi (rəqəmsal xəritə), sahibkarlıq subyektləri və vətəndaşlar üçün nazirliyin press-relizlərinə elektron abunə yazılışı kimi informativ xidmətlərin göstərilməsi təşkil olunmuşdur. İcazələr üzrə www.icazeler.gov.az elektron informasiya portalı, eləcə də www.b2b.az elektron ticarət portalı fəaliyyət göstərir: «İcazəverici sənədlər və onların alınması prosedurları barədə ölkə vətəndaşlarının, eləcə də sahibkarların məlumatlılıq səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmış www.icazeler.gov.az portalının xidmətlərindən noyabr ayında 8840-dan çox, ümumiyyətlə, 316 mindən artıq internet istifadəçisi yararlanmışdır. Noyabr ayında portalın xidmətlərindən yerli istifadəçilərlə yanaşı, 35 xarici ölkədən, o cümlədən Rusiya, Belçika, Almaniya, ABŞ və Türkiyədən olan istifadəçilər yararlanmışlar. Sahibkarların məlumatlılıq səviyyəsini artırmaq, qanunvericilik aktlarının hazırlanması prosesində onların yaxından iştirakını təmin etmək məqsədilə mərkəzi icra hakimiyyəti orqanlarının qanunvericilik aktlarının layihələri icazələrin elektron informasiya portalında yerləşdirilir. İndiyədək portalda 20 dövlət qurumunun 145 qanunvericilik aktının layihəsi ictimai müzakirə üçün icazələrin elektron informasiya portalında yerləşdirilmişdir».

***Maliyyə institutları müasir elektron xidmətlərin tətbiqini genişləndirir***

*«AtaBank» ASC-nin Bank kartları və elektron xidmətlər departamentinin direktoru Teymur Axundov* bildirib ki, nağdsız ödənişlərin həcminin artırılması və stimullaşdırılması məqsədilə banklar tərəfindən davamlı tədbirlər həyata keçirilməkdədir. Mərkəzi Bank, Vergilər Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, digər dövlət qurumları tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlər əhalinin elektron ödəniş sistemlərinə çıxış imkanlarının asanlaşdırılmasında, maarifləndirmə tədbirlərinin genişləndirilməsində böyük imkanlar açır. Maliyyə institutları da öz növbəsində müasir elektron xidmətlərin tətbiq edilməsi və tədricən öz müştərilərinə çatdırılması prosesini uğurla davam etdirir: «Ölkənin ən etibarlı maliyyə strukturlarından olan «AtaBank» ASC-nin uğurlu fəaliyyəti nəticə-



sində ticarət, ictimai-iaşə və xidmət obyektlərində quraşdırılmış retail tipli POS-terminalların sayı 1 dekabr 2014-cü il tarixinə 17280 təşkil etmişdir, yaxın 2 ay ərzində isə bu rəqəmin 20000-ə çatdırılması planlaşdırılır. Quraşdırılmış POS-terminalların sayına görə «AtaBank» ASC ölkədə banklar arasında 1-ci yerdədir və təxminən 27% bazar payına malikdir. Hazırda POS-terminal vasitəsilə aparılan əməliyyatların gündəlik sayı orta hesabla 1200-1300 təşkil edir və bu rəqəm davamlı olaraq artmaqdadır. 2014-cü ilin sonuna qədər «AtaBank» ASC «VISA» beynəlxalq ödəniş sisteminin «payWave», «MasterCard» beynəlxalq ödəniş sisteminin isə «payPass» təmassız texnologiyalarının tətbiqi prosesini bitirəcəkdir. Bu texnologiyalar vasitəsilə kart istifadəçiləri öz kartlarını, sadəcə, POS-terminallara yaxınlaşdırıb əməliyyatlar apara biləcəklər. Qanunvericiliyə əsasən, 20 manat məbləğinə qədər əməliyyatlar PİN-kodsuz aparıla bilər. Beləliklə, 2015-ci ilin əvvəlində bankın 8000 ədədə yaxın POS-terminalı yeni təmassız texnologiyaya keçiriləcəkdir». Bildirilib ki, «AtaBank» bank kreditlərinin, eləcə də kommunal və dövlət rüsumlarının daha tez və səmərəli ödənişinin aparılması üçün müasir ödəniş terminalları quraşdırır.

Elektron ödəniş sistemlərinin təkmilləşdirilməsi, nağdsız ödəmələrin stimullaşdırılması məqsədilə «AtaBank» ASC 2011-ci il dekabrın 15-dən başladığı «Nağdsız ödə, nağd qazan» stimullaşdırıcı lotereya kampaniyasını uğurla davam etdirir. Kampaniya başladığı vaxtdan bu günədək bankın POS terminalları vasitəsi ilə aparılan əməliyyatların həcmi beş dəfədən çox artmışdır.

«AtaBank» ASC-nin ölkənin plastik kartlar bazarında ardıcıl layihələr həyata keçirdiyi vurğulanıb: «İnternet-banking», «Mobile-banking», «Card to card», «PIN change», «SMS-banking», «3D Secure», «Cash by code» kimi layihələr bu istiqamətdə öz mühüm nəticəsini göstərməkdədir. Bank tərəfindən «Online Risk Monitoring» sistemi tətbiq edilib. «VISA» və «MasterCard» beynəlxalq ödəniş sisteminin tamhüquqlu üzvü olan bank hazırda digər ödəniş sistemlərində də üzvlüyün alınması üzrə danışıqlar aparır. Bununla yanaşı, bank ekvayerinq lisenziyaları əsasında nağdsız ödənişlərin inkişafı istiqamətində iri layihələr həyata keçirir».

Bildirilib ki, son zamanlar ölkədə elektron ticarət biznesinin inkişafında artım müşahidə olunmasa da, bununla yanaşı, hazırkı qanunvericilikdə elektron ticarətin təşkili ilə bağlı bir sıra boşluqlar var. Elektron ticarət biznesinin yeni səviyyəyə çıxarılması və müvafiq şəffaflığın təmin edilməsi məqsədilə Vergilər Nazirliyi və digər dövlət qurumları tərəfindən fəal iş aparılmaqdadır: «Nağdsız ödəniş və elektron xidmətlər sistemlərinin beynəlxalq standartlar səviyyəsinə çatdırılması, bu sahədə normativ-hüquqi bazanın təkmilləşdirilməsi və vergi ödəyicilərinin maarifləndirilməsi ilə bağlı çoxsaylı tədbirlər həyata keçirmiş Mərkəzi Bank Vergilər Nazirliyi və digər dövlət qurumlarının fəaliyyəti bir daha sübut edir ki, Azərbaycan dinamik inkişaf yolunda yeni-yeni nailiyyətlər qazanır və qarşıya qoyduğu strateji vəzifələrin öhdəsindən uğurla gəlir».

***Elektron xidmətlərdən istifadəyə maraq böyükdür***

*«Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin rəhbəri Osman Gündüz* bildirib ki, son illər ölkədə internet istifadəçilərinin və əhalinin istifadə etdiyi kompüterlərin sayı artıb, dövlət qurumlarının informasiyalaşması istiqamətində xeyli iş görülüb. Mərkəzi icra orqanlarının internet resurslarında elektron xidmətlər bölməsi yaradılıb, hər bir dövlət qurumu öz standartları əsasında informasiya sistemini formalaşdırıb, «Elektron imza» infrastrukturu qurulub: «Müşahidələr göstərir ki, insanların elektron xidmətlərdən istifadəyə marağı böyükdür. Vətəndaşlar bu xidmətlərdən istifadə etdikcə onun üstünlüklərini başa düşürlər, xidmətlərə tələbat artır. Artıq cəmiyyətdə belə bir inam formalaşıb ki, elektron xidmətlərin tətbiqi uzun müddət növbələrdə dayanmağın, tez-tez dövlət qurumlarına üz tutmağın qarşısını alır, vaxt itkisinə yol verilmir, şəffaflığın güclənməsinə və korrupsiya hallarının aradan qaldırılmasına şərait yaradır, dövlət idarəetməsini effektiv və çevik edir.

Hazırda 400-ə qədər elektron xidmət növü var ki, bunlardan vətəndaşlar banka, poçta müraciət etmədən pul vəsaitinin çıxarılmasında, ölkə daxilində və onun hüdudlarından kənarda malların və xidmətlərin, həmçinin internet vasitəsilə onlayn sifarişlərin ödənilməsində, kart hesabındakı hər hansı dəyişikliklər barədə ətraflı hesabatın alınmasında və şəxsi məsrəflərin, eləcə də gəlirlərin təhlilində və planlaşdırılmasında istifadə edə bilirlər. Vergi ilə, sosial xidmətlərlə bağlı insanlara çox gözəl xidmət olunur.



Bununla bərabər, elektron xidmətlərdən istifadə sahəsində çatışmazlıqlar da vurğulanıb və əsas səbəblərdən biri kimi bu xidmətlərlə bağlı yetərincə informasiya təminatının olmaması göstərilib: «Bəzi qurumların rayonlardakı təqdimatları, sadəcə, çıxışlardan və jurnalist yazılarından ibarət olur. Görülən işlərin mahiyyəti cəmiyyətə layiqincə çatdırılmır. Diskussiyalar olmalıdır, tədbirlərdə ekspertlər iştirak etməlidir. Vacib sosial əhəmiyyətli xidmətlər daim gündəmdə durmalıdır. Bəzən müşahidə edirik ki, dövlət orqanlarının xidmətləri siyahısında beş-on nəfərə lazım olan xidmətlər yer alır. Dövlətin ayırdığı büdcə elə xidmətlərə xərclənməlidir ki, əksəriyyət üçün faydalı olsun. Biz vətəndaş cəmiyyəti qurumu kimi ətraflı monitorinq apararaq «Elektron hökumət»in, «ASAN xidmət»in dəstəyi ilə 80-ə qədər xidmət üzə çıxardıq ki, Nazirlər Kabinetinin təsdiq etdiyi 450 xidmətin siyahısında bunlar yoxdur. Elektron xidmətlərin kütləviliyindən danışarkən bu amil də nəzərə alınmalıdır».

Bütün xidmətlərin portala inteqrasiya olunmaması məsələsinə də toxunularaq bildirilib ki, ölkə başçısının «bir pəncərə» ilə bağlı sərəncamında respublikadakı bütün dövlət orqanlarının məlumatları bir nöqtədən çıxmalı, vətəndaşa bir nöqtədən çatdırılmalıdır: «İnteqrasiya ilə bağlı problemlərimiz hələ qalır. Ayrı-ayrı saytları axtarıb bizə lazım olan xidmətdən istifadə etmək uzun yoldur. İndi dünyada xidmətlərin daha operativ göstərilməsi üçün «Mobil hökumət» anlayışı gündəmdədir. Artıq ölkəmizdə də vətəndaşların böyük əksəriyyətinin lazımi xidmətlərdən öz mobil telefonundan istifadə etmək imkanı var və bu sahədə müvafiq addımlar atılır. Bunun sürətləndirilməsinə ehtiyac var».

*Hazırladılar:*
**E.CƏFƏRLİ,**
**A.NƏBİYEVA,**
**F.İKRAMQIZI**

# “Vergilər” mövzusunda “açıq dərs”

*Dekabr ayının 19-da Xəzər rayonunun Buzovna qəsəbəsindəki 26 saylı tam orta məktəbdə Bakı Şəhər Vergilər Departamenti tərəfindən «Dövlətə vergi-vətənə sevgi» devizi ilə «açıq dərs» təşkil edilmişdir. Dərsdə şagirdlər qruplara bölünərək vergilərin tarixi, əhəmiyyəti, Azərbaycan Respublikasında vergilərin tətbiqi mexanizmləri barədə əldə etdikləri biliklərini səhnələşdirilmiş formada nümayiş etdirmişlər.*



Qeyd edək ki, «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı»nda (2005-2007-ci illər) «Vergi mədəniyyəti» fənninin tədrisi, orta məktəblərdə vergilərlə bağlı metodiki kabinetlərin yaradılması ayrıca istiqamətlər kimi müəyyənləşdirilmişdir. Hazırda Nəsimi rayonundakı 46, Yasamal rayonundakı 225 nömrəli tam orta məktəblərdə vergilərə dair metodiki kabinetlər, Binəqədi rayonundakı 18 və Nizami rayonundakı 4 saylı peşə liseylərində vergilərə aid tədris otaqları yaradılmış, müasir tələblərə cavab verən texniki və əyani vəsaitlərlə təmin edilmişdir.

Orta məktəblərdə vergilərə aid dərsləri aparan müəllimlərə metodiki kömək göstərilir. Bu məqsədlə Bakı Şəhər Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşları tərəfindən 2014-cü il ərzində müəllimlərlə 207 görüş keçirilmiş, bu görüşlərdə 1106 nəfər iştirak etmişdir.

# Ərzaq təhlükəsizliyi: sizin biznes üçün sabit artım

Dekabrın 24-də Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Dünya Bankı Qrupunun üzvü olan Beynəlxalq Maliyyə Korporasiyasının birgə seminarı keçirilib. «Ərzaq təhlükəsizliyi: sizin biznes üçün sabit artım» - adlanan tədbirdə hökumət nümayəndələri, Bakı şəhərində fəaliyyət göstərən aparıcı ərzaq istehsalçıları, məsləhətçilər, ticarətçilər və aqrobiznes assosiasiyalarının təmsilçiləri iştirak edirlər. «Dəyirmi masa» formatında keçirilən tədbirdə aqrobiznes şirkətlərinə regional və ixrac tələblərinin yerinə yetirilməsində yardım göstərilməsi, aqrobiznes sektorunun potensialının tam gerçəkləşdirilməsi üçün bünövrə təmin edilməsi məqsədilə ərzaq təhlükəsizliyi standartlarının əhəmiyyəti kimi məsələlər təhlil edilib.

Konfederasiyanın rəhbəri Məmməd Musayev bildirib ki, hazırda dünyanın bir sıra ölkələrində ərzaq məhsullarının bahalaşması, ərzaq qıtlığının hökm sürməsinə baxmayaraq, ölkəmizin əlverişli coğrafi mövqeyi, iqlim şəraiti və ölkə rəhbərliyinin apardığı uğurlu siyasət Azərbaycanın məhsul təminatına zəmanət yaradıb.

Dünya Bankının Azərbaycan nümayəndəliyinin baş əməliyyatlar əməkdaşı Rufiz Vahid Çıraqzadə vurğulayıb ki, çətinliklərin həlli üçün sahibkarlara seçilmiş banklar tərəfindən uzunmüddətli kreditlər veriləcək. Bu kreditlər işçi kapitalı üçün deyil, investisiya məqsədləri üçün nəzərdə tutulur. Hazırda iqtisadi təhlili aparılan bu layihədən 18-21% iqtisadi fayda gözlənilir.

Konfransda yerli bazarlar üçün qlobal həllər, ölkəmizdə ərzaq təhlükəsizliyi problemləri və onların həlli yolları, bu sahə ilə bağlı beynəlxalq standartlar və Azərbaycan təcrübəsi, restoran və mətbəx biznesində ərzaq təhlükəsizliyi, istehlak tələbatı və s. mövzularda müzakirələr aparılıb.

Qeyd etmək yerinə düşər ki, bir neçə gün əvvəl Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi ilə Dünya Bankı Qrupunun üzvü olan Beynəlxalq Maliyyə Korporasiyası (IFC) arasında ölkənin kənd təsərrüfatı sektorunda məhsuldarlığın və rəqabətliliyin artırılmasına dair saziş imzalanmışdır. Kənd təsərrüfatı naziri Heydər Əsədovun sözlərinə görə, sazişin məqsədi fermerlərin müxtəlif kənd təsərrüfatı bitkilərinin yüksək məhsuldar sortları, o cümlədən idxal olunan toxumları əldəetmə imkanlarının artırılmasıdır. Dövlət sort sınağı, qeydiyyatı və mühafizəsinin tənzimlənməsində təkmilləşdirmələrin, institusional gücləndirmənin dəstəklənməsi vasitəsilə Azərbaycanın kənd təsərrüfatı sektorunda məhsuldarlığın və rəqabətliliyinin artırılmasına nail olunacaq.

**Fəxriyyə İKRAMQIZI**






# Borclu vergi ödəyiciləri

*Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin I bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.*

*Əksər vergi ödəyiciləri vergilərini müəyyən olunmuş müddətlərdə, müxtəlif səbəblərdən yaranmış vergi borclarını isə mümkün qədər tez ödəməyə çalışsalar da, bəziləri qanunvericiliyin tələblərini pozaraq onların dövlət büdcəsinə vaxtında ödənilməsini təmin etmirlər ki, bu da büdcəyə vergi daxilolmalarına mənfi təsir göstərir. Belə halların aradan qaldırılması üçün Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsi tərəfindən aparılan mütəmadi təhlillər əsasında, imkanı olmasına baxmayaraq, vergi borcunu ödəməkdən yayınan vergi ödəyicilərinə qarşı digər qanunamüvafiq tədbirlər görülməklə yanaşı, onların siyahısı həftədə bir dəfə «Vergilər» qəzetində dərc edilir və artan yekunla nazirliyin rəsmi veb-saytında yerləşdirilir. Borcunu ödəyən vergi ödəyicisinin adı siyahıdan çıxarılır.*

*Adlarının ictimaiyyətə açıqlanmasını və bundan irəli gələ biləcək ciddi problemlərlə üzləşmək istəməyən vergi ödəyiciləri dövlət büdcəsinə borclarının ləğv olunmasını təmin etməlidirlər.*

| S/N | Vergi orqanı | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | Obyektin adı |
|---|---|---|---|---|
| 1 | BŞVD | "OFİS SPACE" MMC | Bakı şəhəri Nizami rayonu | Anbar və ofis |
| 2 | BŞVD | Zeynalov Pərviz Əlican oğlu | Bakı şəhəri Yasamal rayonu | “Kristal” çay evi |
| 3 | BŞVD | "XS LTD" MMC | Bakı şəhəri Nəsimi rayonu | Mağaza |
| 4 | BŞVD | Hacıyev İkram Fazil oğlu | Bakı şəhəri Binəqədi rayonu | Quru kimyəvi təmizləmə |
| 5 | BŞVD | "ASP" Mənzil-Tikinti Kooperativi | Bakı şəhəri Nəsimi rayonu | İcarə obyekti |
| 6 | BŞVD | "AVANQARD" MMC | Bakı şəhəri Yasamal rayonu | Ofis |
| 7 | BŞVD | "BAXÇASARAY" MMC | Bakı şəhəri Xətai rayonu | Ofis |
| 8 | BŞVD | Hüseynov Ramiz Tapdıq oğlu | Bakı şəhəri Binəqədi rayonu | "Baron" kafesi |
| 9 | BŞVD | Bayramov Cümşüd Bədir oğlu | Bakı şəhəri Nəsimi rayonu | Restoran |
| 10 | BŞVD | "MÜHACİR" Məhdud Məsuliyyətli Müəssisəsi | Bakı şəhəri Xətai rayonu | Aviakassa |
| 11 | BŞVD | Əliyev Fuad Ehtibar oğlu | Bakı şəhəri Suraxanı rayonu | Mağaza |
| 12 | BŞVD | "QİSMƏT-M" MMC | Bakı şəhəri Xətai rayonu | Avtodayanacaq |
| 13 | BŞVD | "QRAFİK KO LTD" Məhdud Məsuliyyətli Müəssisəsi | Bakı şəhəri Xətai rayonu | Plastik sexi |
| 14 | BŞVD | "NİHAT KREDİT İTTİFAQI" MMC | Bakı şəhəri Binəqədi rayonu | Ofis |
| 15 | BŞVD | "SK-MEMARLIQ" MMC | Bakı şəhəri Binəqədi rayonu | Ofis |
| 16 | BŞVD | "XOSROV NUR" MMC | Bakı şəhəri Yasamal rayonu | Aptek |
| 17 | BŞVD | "ANAN" İstehsalat-Kommersiya Fərdi Şirkəti | Bakı şəhəri Sabunçu rayonu | Avtomobillərə texniki xidmət |
| 18 | BŞVD | "AYXAN" Kiçik Müəssisəsi | Bakı şəhəri Sabunçu rayonu | Ərzaq mağazası |
| 19 | BŞVD | "İŞGÜZAR-Q" MMC | Bakı şəhəri Qaradağ rayonu | Daş karxanası |
| 20 | BŞVD | "İXTİSASAVTOMATİKA" MMC | Bakı şəhəri Nizami rayonu | Ofis |
| 21 | 2 saylı ƏVD | "ZEMİN TEXNİKA" MMC | Abşeron rayonu | Servis xidməti |
| 22 | 3 saylı ƏVİ | İfraimov Oktay Qavriloviç | Quba rayonu | Otel |
| 23 | 6 saylı ƏVİ | “CƏNUB+R” MMC | Lənkəran rayonu | Mehmanxana |
| 24 | 8 saylı ƏVİ | Rüstəmov Müzəffər Qəzənfər oğlu | Ağcabədi rayonu | Kafe |
| 25 | 9 saylı ƏVİ | Hacıyev Novruz Qədir oğlu | Göyçay rayonu | Mağaza |
| 26 | 11 saylı ƏVD | "ATOMAR SERVİS" MMC | Mingəçevir şəhəri | Ofis |
| 27 | 14 saylı ƏVİ | “Hüseyn” firması | Qazax rayonu | Daş karxanası |
| 28 | 14 saylı ƏVİ | Əkbərov Yaşar Hümmət oğlu | Tovuz rayonu | “Dostluq” mebel salonu |
| 29 | 14 saylı ƏVİ | Abbasov Eldar Faiq oğlu | Gədəbəy rayonu | “Elfon” ərzaq mağazası |
| 30 | 14 saylı ƏVİ | Əliyev Xaliq Nurəddin oğlu | Şəmkir rayonu | Təsərrüfat malları mağazası |

# Tədris-Metodiki Şuranın növbəti iclası

*Vergilər Nazirliyi yanında Tədris-Metodiki Şuranın növbəti - 7-ci iclasında 2014-cü ilin 11 ayı ərzində tədris-təlim sahəsində görülmüş işlər, keçirilən təlimlərin qiymətləndirilməsi üzrə aparılmış işlərin nəticələri, nazirliyin struktur vahidləri və bölmələrinin təlim tələbatları, eləcə də 2015-ci ildə keçirilməsi nəzərdə tutulan ilkin hazırlıq və ixtisasartırma kurslarının tədris-mövzu planlarına daxil edilməsinə dair təkliflər müzakirə edilib.*

Qeyd olunub ki, 2014-cü ilin 11 ayı ərzində təlim proseslərinin normativ-hüquqi təminatı sahəsində görülmüş işlərin nəticəsi olaraq, Vergilər Nazirliyinin Tədris Konsepsiyası, dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təşkili Qaydaları, Vergilər Nazirliyində keçirilən təlimlərin qiymətləndirilməsinə dair Metodiki Tövsiyələr və Vergilər Nazirliyində kuratorluq (himayədarlıq) təlimlərinin təşkilinə dair Metodiki Tövsiyələr təsdiq olunmuşdur. Bu müddət ərzində 12 ixtisasartırma və 7 ilkin hazırlıq kursu təşkil edilmiş, 45 qısamüddətli təlim aparılmışdır. Tədris prosesinə 1512 nəfər dinləyici cəlb olunmuş və beləliklə, vergi orqanlarında çalışan əməkdaşların 61%-nin təlimlərdə iştirakı təmin edilmişdir. Bu göstərici ötən il 54,7%, 2012-ci ildə isə 32,2% səviyyəsində olmuşdur. Cari ilin 11 ayı ərzində ixtisasartırma kurslarına 353 nəfər, ilkin hazırlıq kurslarına 188 nəfər, qısamüddətli təlimlərə isə 971 nəfər dinləyici cəlb olunmuşdur.

11 ay ərzində bir vergi orqanı əməkdaşına 9 adam-gün təlim keçilmişdir. 2011-ci ildə bu göstərici 3,2; 2012-ci ildə 3,7; 2013-cü ildə isə 4,7 adam-gün olmuşdur. 11 ayda ixtisasartırma kursları üzrə biliklərin qiymətləndirilməsinin nəticələri 61,3%, yekun qiymətləndirmə isə 82,3% olmuşdur. Beləliklə, tədris prosesi nəticəsində biliklərin artımı 21% təşkil etmişdir. İlkin hazırlıq kurslarında ilkin qiymətləndirmə 54,3% və yekun qiymətləndirmə 79,1% olmaqla artım 24,8% olmuşdur. Bu da son dövrlərdə keçirilən kursların təlim tələbatlarına daha çox uyğunlaşdırılması, təlim proseslərində praktiki yönümlü mövzuların xüsusi çəkisinin artırılması və tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan işlərin məntiqi nəticəsidir.

# “Vergi dostları” ilə görüş

*8 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) əhatə dairəsinə aid olan Beyləqan və Ağcabədi rayonlarında fəaliyyət göstərən «vergi dostları» ilə görüşlər vergi orqanları ilə əhali arasındakı əməkdaşlığın qiymətləndirilməsi üçün yaxşı fürsət olmuşdur.*

8 saylı ƏVİ-nin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Mahir Qarayev bildirmişdir ki, Vergilər Nazirliyinin Təhsil Nazirliyi ilə birlikdə 2012-ci ildə həyata keçirməyə başladığı «Vergi dostları» layihəsininin başlıca məqsədi vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işini genişləndirmək, vergi məfhumunu ölkəmizin bütün ərazisinə, o cümlədən hər bir ailəyə çatdırmaq, bununla da vətəndaşlarda vergi mədəniyyəti formalaşdırmaqdır.

2013-cü ilin iyul ayından bu layihə çərçivəsində Beyləqan, Ağcabədi və İmişli rayonlarında «Vergi dostları» şəbəkəsi fəaliyyətə başlamış, orta məktəblərdə çalışan 130 nəfər müəllim «vergi dostu» seçilmişdir.

Dekabrın 5-də və 17-də Beyləqan rayonu Birinci Aşıqlı kənd orta məktəbində, Ağcabədi şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbdə və Ağcabədi rayon Gənclər Mərkəzində «vergi dostları»nın, şagirdlərin, bələdiyyə və rayon gənclərinin iştirakı ilə keçirilmiş görüşlər zamanı əməkdaşlığın müsbət nəticələri qeyd edilmişdir. Vurğulanmışdır ki, fəal «vergi dostları» tərəfindən müxtəlif işlər (kənd əhalisi arasında vergi təbliğatı işləri, vergi ödəyicilərinin elektron xidmətlər, o cümlədən bəyannamələrin tərtibi və göndərilməsi barədə məlumatlandırma, praktiki kömək və s.) həyata keçirilmiş, ödəyicilərə yerli vergi orqanları tərəfindən mütəmadi kömək göstərilmiş, «vergi dostu» seçilmiş müəllimlərin fəaliyyətinin əlaqələndirilməsi, eləcə də gördükləri işlər barədə operativ məlumat vermək imkanlarının genişləndirilməsi, bu sahədə təcrübələrini bölüşmələri məqsədilə «Facebook» sosial şəbəkəsində «Vergi dostları» qrupu yaradılmışdır.




beynəlxalq panoram

# Yol vergisi vicdanlı vəd əsasında ödəniləcək



Yaxın vaxtlarda Kipr hökuməti yol vergisinin xroniki ödəməmələri ilə mübarizə aparılması barədə qanuna baxacaq. Statistik məlumatlara əsasən, hazırda bu ölkədə təxminən 107 min avtomobil sahibi vergidən yayınır. Xəzinəyə borcların məbləği isə 43,5 mln. avrodur.

Yeni qanun isə and içməklə avtomobil sahiblərinə avtomobilinin utilizasiya olunmasını bəyan etmək və buna əsasən vergi ödəməmək imkanı verir. Bu halda onlar avtomobilin sərəncamında olmadığı barədə heç bir sübut təqdim etməyə borclu deyillər.

Amma vətəndaşın yanlış məlumat verdiyi aşkarlanarsa, o, 6 ay müddətinə həbs olunacaq və ya 5000 avro cərimələnəcək.

Yol vergisinin ödənilməsi üçün ərizələrin verilmə müddətinin 28 fevral 2015-ci ilədək uzadılması haqda qərar da qəbul edilib.

# Otellərə tətbiq olunan vergi xeyli artıb

*Fransanın turizm naziri otellərin vergi dərəcəsinin dəyişməsinin adi otellərlə bərabər, internet vasitəsilə bron edilən apartamentlərə də təsir göstərəcəyini bəyan edib.*

Gözlənildiyindən az artdığına, adətən internet vasitəsilə bron edilən qeyri-ənənəvi evlərə və mənzillərə şamil olunduğu üçün turizm naziri vergi dərəcələrinin yüksəldilməsini doğru və müasir tələblərə uyğun hesab edir.

Ulduzsuz otellər və bu cür obyektlərə bir gecəyə görə adambaşına 0,40 avro əvəzinə 0,75 avro vergi dərəcəsi tətbiq olunacaq. Həmin vergi qeyri-ənənəvi, məsələn, Airbnb.Com vasitəsilə sifariş edilən yerlərdən yığılacaq. Birulduzlu yaşayış yerlərinə əvvəlki kimi 0,75 avro vergi dərəcəsi tətbiq olunacaq. İkiulduzlu otellərin vergi dərəcəsi isə 0,90 avro səviyyəsində dəyişməz qalır.

3 ulduzlu otellərdə vergilər 1 avrodan 1,5 avroyadək; 4 ulduzlu otellərdə 1,5 avrodan 2,25 avroyadək; 5 ulduzlu otellərdə 1,5 avrodan 3 avroyadək artacaq.

# Audio-video aparatlar və texnika üçün rüsum tutulacaq

*Avrasiya İqtisadi Birliyi ölkələrində, o cümlədən Belarus və Qazaxıstanda şəxsi istifadə üçün nəzərdə tutulan audio-video aparatlarının və texnikanın dəyərinin 1%-i həcmində rüsum tutulacaq. Rusiyada bu rüsumdan yığılan vəsait əsərlərin müəlliflərinə və ifaçılarına ödənilir.*

Avrasiya İqtisadi Birliyində müəllif hüquqlarının və əlaqəli hüquqların kollektiv əsasda idarə olunmasının tənzimlənməsi haqda sazişin layihəsi Rusiya, Belarus və Qazaxıstanda dövlətdaxili razılaşdırma mərhələsindən keçmiş, amma imzalanmamış və ratifikasiya olunmamışdır. Kollektiv idarəetmə haqqında sazişdə «fonoqramlardan və audio-video əsərlərdən şəxsi məqsədlər üçün istifadə olunmasına görə» müəlliflərin, ifaçıların, audio və video məmulatları istehsalçılarının mükafat almaq hüququ nəzərdə tutulur.



Sənədin son versiyasında rüsumun texnika və daşıyıcıların dəyərinin 1%-i həcmində olacağı təsbit edilib. Rüsumun tutulması qaydası hər bir ölkənin qanunvericiliyi ilə tənzimlənəcək. Qeyd olunub ki, Belarus və Qazaxıstanın qanunvericiliyində audio və video əsərlərindən şəxsi məqsədlər üçün istifadə olunmasına görə rüsum ödənilməsi nəzərdə tutulsa da, təcrübədə bu pullar yığılmır.

Xarici ölkələrin təcrübəsi

# Sloveniya Respublikası: *mənfəət vergisi*

*Sloveniya Respublikası keçmiş Yuqoslaviya İttifaqına daxil olmuş, Balkan dövlətlərindən yüksək iqtisadi inkişaf tempi ilə seçilən Avropanın ən gənc demokratik dövlətlərindən biridir. 1991-ci ildən müstəqillik qazanmışdır. 2004-cü ildən Avropa İttifaqı və NATO-nun üzvüdür. 2007-ci il tarixdən Avrozonaya qoşulmuşdur.*

Sloveniya Respublikasının Vergi Administrasiyası Maliyyə Nazirliyinin tərkibində Baş Vergi Administrasiyası və ərazi vergi orqanlarından ibarətdir. Vergi Administrasiyasının rəhbəri Maliyyə Nazirliyi tərəfindən təyin edilir. Vergi Administrasiyasının strukturu Maliyyə Nazirliyinin tərkibinə daxil olan Baş vergi orqanı, 15 Ərazi Vergi Orqanı və 1 Xüsusi Vergi Xidmətindən (İri Biznes Ofisi) ibarətdir. Ərazi vergi orqanlarının yerlərdə 60 filialı fəaliyyət göstərir. Vergi Administrasiyası iri vergi ödəyiciləri kriteriyasına uyğun təşkil edilmişdir. 2012-ci ildə Sloveniya Vergi Administrasiyası tərəfindən 14,1 mlrd. ABŞ dolları (o cümlədən birbaşa vergilər 26,3%, dolayı vergilər 19,8%, sosial sığorta 52,2%, digər 1,7%) vergi toplanmışdır. Vergi ödəyicilərinin sayı 2 milyon 719 min, ƏDV ödəyicilərinin xüsusi çəkisi 3,7%-dir. Vergi əməkdaşlarının sayı isə 2330 nəfərdir

**Mənfəət vergisi:** Sloveniyada mənfəət vergisi klassik sistem şəklində tətbiq edilir, yəni müəssisənin mənfəəti müəssisə səviyyəsində vergitutma obyektidir. Mənfəət vergisi, Sloveniya qanunvericiliyi və ya beynəlxalq mühasibat standartlarına əsasən, gəlirlər və xərclər arasındakı fərqlə müəyyən edilir.

Vergi ödəyiciləri: yerli və xarici qanunvericilik əsasında yaradılmış bütün hüquqi şəxslər və aşağıda qeyd olunanlar mənfəət vergisi ödəyicisidirlər. Təşkilati cəhətdən vergi ödəyiciləri aşağıdakılar hesab olunur:

- *səhmdar cəmiyyətləri:*
- *məhdud məsuliyyətli cəmiyyətlər;*
- *məhdud səhmli ortaqlıqlar;*
- *məhdud ortaqlıqlar;*
- *ümumi ortaqlıqlar;*
- *korporativlər;*
- *kommersiya assosiasiyaları.*

Dövlət müəssisələri, qeyri-kommersiya assosiasiyaları, institutları, palataları, dini birliklər və siyasi partiyalar mənfəət vergisi məqsədləri üçün vergitutma subyektləridir. Gəlir vergisi ödəyicisi hesab edilməyən qeyri-rezident assosiasiyaları da mənfəət vergisinin subyektləridir.

*Rezidentlik:* Sloveniya ərazisində hüquqi ünvan və ya effektiv idarəçilik yeri olan hüquqi şəxslər mənfəət vergisi məqsədləri üçün rezident şəxslərdir.

*Vergiyə cəlb olunan gəlir:* Rezident müəssisələr bütün gəlirləri üzrə vergiyə cəlb olunurlar. Vergi bəyannaməsinə əsasən, müəssisə fəaliyyətindən ümumi gəlir və ondan xərclər qədər azaldılmış vergiyə cəlb olunan gəlir müəyyən edilir. Sloveniya qanunvericiliyi və ya beynəlxalq mühasibat standartlarına əsasən, gəlir və zərər hesablarının nəticələri vergi məqsədləri üçün uyğunlaşdırılmışdır.

*Vergidən azad olunan gəlir:* Ümumiyyətlə, müəssisənin fəaliyyəti nəticəsində əldə edilən bütün gəlirlər vergiyə cəlb olunur. Müəyyən şərtlər daxilində dividend gəliri vergidən azaddır.

*Gəlirdən çıxılan xərclər:* Biznes fəaliyyəti nəticəsində və ya bu fəaliyyətlə birbaşa əlaqəli əsaslandırılmış xərclər gəlirdən çıxılır.

Mikromüəssisə rejimində illik gəlirləri 50 min avroya qədər olan ödəyicilər xərcləri gəlirdən birdəfəlik çıxa bilərlər. Gəlirdən çıxılmalar illik gəlirin 70%-dən çox olmamalıdır. Əvvəlki illərdəki vergi güzəştləri və vergi zərərləri üzrə bu rejim tətbiq oluna bilməz. Rejimi tətbiq etmək istəyən ödəyicilər mart ayının 31-nə kimi əvvəlcədən müraciət etməlidirlər. Yeni yaradılmış müəssisələr qeydiyyat tarixindən 8 gün ərzində müraciət edə bilərlər.

Sloveniya qanunvericiliyinə əsasən, güzəştli vergitutma rejimi ərazisi ümumi və ya orta nominal vergi dərəcəsi 12,5%-dən aşağı olan Avropa İttifaqından kənar ərazidir. Mənfəət vergisi məqsədləri üçün güzəştli vergitutma rejimi ərazisinə daxil olan ölkələrin siyahısı Maliyyə Nazirliyi tərəfindən müəyyən edilmişdir: Baham adaları, Barbados, Beliz, Bruney, Dominikan Respublikası, Kosta-Rika, Liviya, Lixtenşteyn, Maldiv, Marşal adaları, Mavritaniya, Oman, Panama, Sent Kids və Nevis, Sent Vinsent və Qrenada, Samoa, Seyşel adaları, Uruqvay və Vanuatu.

Əyləncə və idarə heyətinin xərcləri 50% həcmində gəlirdən çıxılır. Silinmiş debitor borcları gəlirdən çıxılan xərclər kimi tanınır.

Debitor borclarının yenidən qiymətləndirilməsi ilə bağlı çəkilən xərclərin məbləği aşağıdakı həcmdə məhdudlaşdırılmışdır:

- *son 3 vergi ilində silinmiş debitor borcları üzrə orta çıxılmalar;*
- *cari vergi ilində vergi tutulan gəlirin 1%-i.*

Birləşmə nəticəsində qudvilin dəyərdən düşməsilə bağlı xərclər qudvilin ilkin balans dəyərinin 20%-i həcmində gəlirdən çıxıla bilər. Artıq qalan hissə isə növbəti vergi illərində çıxılır.

***Gəlirdən çıxılmayan xərclər:***

- *dividendlər və dividend hesab olunanlar;*
- *güzəştli vergitutma rejimi ərazisində olan rezident şəxsdən götürülmüş kreditlərə görə ödənilən faizlər;*
- *ianələr və s.*

*Dərəcələr:* 2014-cü il yanvarın 1-dən mənfəət vergisinin dərəcəsi 16%-dir. 2015-ci ildə isə bu dərəcənin 15%-ə endirilməsi planlaşdırılır. Müəyyən şərtlər daxilində investisiya fondlarına, pensiya fondlarına və sığorta şirkətlərinə 0% dərəcəsi tətbiq edilir.

*Amortizasiya məbləğləri:* Əsas vəsaitlər və uzunmüddətli qeyri-maddi aktivlər üzrə amortizasiya məbləğləri gəlir vergisinin müəyyənləşdirilməsi məqsədilə gəlirdən çıxılır. Çıxılmalar düz-xətt metodu və qanunda qeyd edilən maksimum köhnəlmə dərəcəsi ilə məhdudlaşdırılır. Maksimum köhnəlmə dərəcələri tikililər üzrə 3%; maşın və avadanlıqlar üzrə 20%; kompüterlər üzrə 50%-dir. Fərdi yaradılmış qudvil və patentlər əsas vəsait kapitalı hesab edilmədiyi üçün amortizasiya olunmur.

500 avro və ondan aşağı dəyərdə olan əsas vəsaitlər həmin vəsaitlərin əldə olunduğu ildə birbaşa olaraq gəlirdən çıxıla bilər.

*Zərərin keçirilməsi:* 2013-cü il yanvarın 1-dən zərər növbəti dövrə məhdudiyyət qoyulmadan keçirilə bilər. Lakin zərər hər hansı vergi ilində vergi tutulan gəlirin 50%-dən çoxunu azalda bilməz. Zərərin əvvəlki dövrə keçirilməsinə isə icazə verilmir.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord




**Yuxarıdan aşağı:**

1. Bir sıra ölkələrin hərbi dəniz qüvvələrində hərbçilərə verilən rütbə; 2. İlkağızlılar yarımbölməsinə aid, yumşaq bədənli onurğasız dəniz heyvanı tipi; 3.Gədəbəy rayonunda kənd; 4.Nigeriyanın cənub-qərbində şəhər; 5.Görkəmli Azərbaycan şairinin təxəllüsü; 6. İlin aylarından biri; 9.Qafqazın ən böyük mədəniyyət, elm və ticarət mərkəzi; 13.Arxitektura elementi; 15.Rəsmi orqanların, yaxud idarələrin siyahısı, reyestri; 16.Gözü işıqdan qorumaq üçün lampaya keçirilən örtük, qalpaq;17.Mərd, alicənab; 18.Qədim Romada müxtəlif vəzifəli şəxslərin adı; 20.Tanınmış Azərbaycan bəstəkarı, əməkdar incəsənət xadimi, xalq artisti, «Arazım» və «Gecələr» mahnılarının müəllifi; 21.Şaxtanın bir hissəsi, dağlarda qrunt sularının yığıldığı boşluqlar.

**Soldan sağa:**

1.Xatirələrdən bəhs edən oçerkləri yazan şəxs; 5.Qida məhsulu; 7.Səfəvilər və Osmanlılar arasında döyüşün baş verdiyi düzənlik ərazinin adı; 8.B.e.ə. IV əsrdən başlayaraq Qədim Yunanıstanda, Romada və 18-ci əsrədək Qərbi Avropada hesablama üçün işlədilmiş lövhə; 10.Efiopiyada vulkan; 11.Oksigensiz yaşaya bilən mikroorqanizmlər; 12.Rusiya Federasiyasının Rostov vilayətində şəhər; 14.Bakıda rus dilində nəşr olunan həftəlik ictimai-siyasi qəzet; 19.XVII-XVIII əsrlərdə Avropa mədəniyyətində renessans və klassizm arasında mövcud olmuş cərəyan; 21.Xorvatiyada şəhər; 22.Portuqaliyada yaşayış məntəqəsi; 23.Səfəvilər dövlətinin ikinci şahı - Şah İsmayılın oğlu; 24.İranda şəhər; 25.Qüzey Azərbaycan ilə Güney Azərbaycanı birləşdirən körpü.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Rafael (İsgəndərov); 2.Niaqara; 3.Stiks; 4.Avqust; 5.Aygün; 6.Avrora; 9.Ələt; 13.«Qaya»; 15.Ametist; 16.Müslüm (Maqomayev); 17.Bəhmən (Əliyev); 18.Kolmar; 20.Varan; 21.Klişe.

**Soldan sağa:** 1.Renessans; 5.Ağa; 7.Flaminqo; 8.Əgər; 10.Evans; 11.Silindr; 12.Haaqa; 14.Atlas; 19.Ülviyyə (Könül); 21.Kredo; 22.Lari; 23.Empirizm; 24.Min; 25.Vinçester.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev
anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14200**

## idman

# Velosiped həvəskarlarına bayram hədiyyəsi

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə dekabrın 27-də Azərbaycan Velosiped İdmanı Federasiyası (AVİF) və «SharkHead» velosipedçilər klubunun birgə təşkilatçılığı ilə velosiped həvəskarları üçün «Critical X-Mass Baku» yürüşü təşkil olunacaq. Saat 15:00-da start götürəcək yürüş zamanı iştirakçılar Azadlıq meydanından (Hökumət Evinin qarşısı) başlayaraq şəhər küçələri ilə 18 kilometr məsafə qət edəcəklər. Yürüş elə başladığı yerdə sona çatacaq.

Tədbir yekunlaşdıqdan sonra kiçik yaşlı uşaqlara federasiya tərəfindən Yeni il hədiyyələri təqdim olunacaq. AVİF velosiped həvəskarlarını yürüşə dəvət edərək onları bayram sevincini birgə yaşamağa çağırır.



# Qaliblər mükafatlandırıldı

*«Azərbaycan gəncliyi 2011-2015-ci illərdə» Dövlət Proqramının müvafiq bəndinin icrası, velosiped idmanının daha da populyarlaşması və kütləviliyi, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili, sağlam həyat tərzinin təbliğ olunması və yeni istedadların üzə çıxarılması məqsədilə Azərbaycan Velosiped İdmanı Federasiyası «Məktəbli Kuboku» layihəsinin icrasına başlayıb.*

Nərimanov Rayon Gənclər və İdman İdarəsi ilə əldə olunmuş razılığa əsasən, dekabrın 17-də Veloparkda adı çəkilən rayonun məktəbliləri arasında velosiped yarışı keçirilib.

Yarışda hər birinin tərkibində 2 qız və 2 oğlan olmaqla 21 məktəbin komandası iştirak edib. Federasiya tərəfindən velosiped və digər zəruri avadanlıqlarla təmin edilən şagirdlər estafet sistemi üzrə yarışıblar. Yarışın nəticələrə görə, 207 saylı orta məktəbin komandası hamıdan yaxşı çıxış edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 2-ci yeri «Tərəqqi» Texniki-Humanitar Liseyi, 3-cü yeri isə 47 saylı orta məktəbin kollektivi tutub. Qaliblər federasiya tərəfindən müvafiq olaraq 200, 150 və 100 manat pul mükafatı, kubok, medal və diplomla təltif ediliblər.

Qeyd edək ki, Nərimanov rayonu məktəbliləri arasında keçirilən bu yarış pilot layihədir və yaxın gələcəkdə ümumrespublika «Məktəbli Kuboku»nun təşkili də nəzərdə tutulur.



# Tennisçilərimizin beynəlxalq turnirdə uğuru

*İran İslam Respublikasının Qəzvin şəhərində stolüstü tennis üzrə kadetlər və yeniyetmələr arasında X beynəlxalq Fəcr kuboku uğrunda keçirilən yarışlar başa çatıb.*

Azərbaycan Stolüstü Tennis Federasiyasından bildiriblər ki, yarışda 1999-cu il və daha azyaşlı kadet, 1996-cı il təvəllüdlü və daha azyaşlı yeniyetmə oğlan və qızlar mübarizə aparıblar. Turnirdə İranın üç komandası ilə yanaşı, Azərbaycan, Türkmənistan, Qazaxıstan, Suriya təmsilçiləri də güclərini sınayıblar.

Beynəlxalq yarışda ölkəmizi məşqçilər Elnur Hidayətzadə və Gülnarə İbrahimovanın rəhbərliyi ilə yığma komandamızın 11 üzvü (6 qız və 5 oğlan) təmsil edib.

Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmalarda kadet qızlardan ibarət komandamızın üzvləri Dinarə Məmmədova, Nəzrin Əhmədova və Nəzakət Qarayeva yaxşı oyun nümayiş etdirərək üçüncü yeri tutublar.

# Azərbaycan idmançısı yeni ulduz adlandırılıb

*Beynəlxalq Avarçəkmə Federasiyası (FISA) Azərbaycan yığmasının avarçəkəni Boris Yotovu yeni ulduz adlandırıb. Bu barədə Avarçəkmə Federasiyasının mətbuat xidmətindən məlumat veriblər.*

FISA-nın rəsmi saytında B.Yotovla blits-müsahibə dərc olunub. Sayt yazır: «18 yaşlı Yotov Azərbaycanın perspektivli avarçəkənlərindən biridir. Bu il o, gənclər arasında Olimpiya Oyunlarında ikinci nəticə göstərib. Sonra iki nəfərlik qayıqda yaşlı idmançılar arasında Avropa və dünya birinciliklərinin gümüş medalını qazanaraq özünü təsdiq edib. Bu nəticələr sayəsində Boris yeni ulduz elan edilib».

Müsahibəsində ikinci yerin yüksək nəticəsi olduğunu vurğulayan B.Yotov əlavə edib ki, avarçəkmə olmasaydı, voleybolu seçərdi. İdmançı xorvatiyalı Sinkoviç qardaşlarını özünün kumiri adlandırıb, Eminemi dinləməyi sevdiyini bildirib. O, 2016-cı il Rio-de-Janeyro Olimpiadasında medal qazanmağı qarşısına məqsəd qoyduğunu bildirib.

## mozaika

# Azərbaycan bəstəkarı "Grammy" mükafatına namizəddir

madaniyyat

*Beynəlxalq «Grammy» mükafatına «Klassik musiqi» nominasiyasında namizədlərin adları açıqlanıb. Azərbaycan musiqi ictimaiyyəti üçün çox əlamətdar hadisədir ki, üç namizəddən biri dünya şöhrətli bəstəkar, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti Firəngiz Əlizadədir.*



Bu mükafat musiqi sahəsində dünyanın ən məşhur mükafatı sayılır və «Oskar»ın musiqi variantı hesab edilir. Qeyd etmək yerinə düşər ki, Azərbaycan bəstəkarlıq məktəbi tarixində ilk dəfədir bəstəkarımız belə məşhur mükafata namizəd göstərilir.

Firəngiz Əlizadə deyib: «Mən bu şad xəbəri «Hans Sikorski» yayım evinin xəbər lentindən əldə etdim. Orada üç bəstəkarın adı qeyd edilib. Bunlardan biri müasir musiqi sahəsində böyük müvəffəqiyyətlər əldə etmiş ən məhsuldar bəstəkarlardan olan amerikalı Lera Auerbaxdır. Digər bəstəkar Meçislav Vaynberq yaşlı nəslin nümayəndəsidir və onun «Anna Frankın gündəliyi» operası dünyanın bir çox ölkəsində səhnəyə qoyulub.

Fəxrlə deyə bilərəm ki, bu üç namizəddən biri olmaq mənim üçün böyük uğurdur. Bu mükafatı almağa nə qədər şansımın olduğunu deyə bilmərəm, lakin 2015-ci il fevralın 8-də keçiriləcək təqdimat mərasiminə artıq dəvət almışam. Mənim üçün əlamətdar məqam odur ki, bu ali mükafata məşhur amerikalı skripkaçı, meqa-star Hillari Hanın «Deutsche Grammofon»da işıq üzü görən, musiqiçilərimdən ibarət alboma görə namizəd göstərilmişəm.

# Ən təhlükəli viruslar

texnologiya

*«Kasperski laboratoriyası» şirkəti «Məqsədli kiberhücumların xronikası» adlı resurs istifadəyə verib. Saytda istifadəçilər internet məkanında bütün mürəkkəb məqsədli hücumlar ilə bağlı informasiya əldə edə bilərlər.*



Qeyd olunur ki, 2014-cü ildə mürəkkəb məqsədli hücumlara məruz qalan təşkilatların sayı 2,4 dəfə artıb: son 12 ayda 55 ölkədə 4400 iri struktur kibercinayətkarların qurbanı olub. Qurbanlar arasında dövlət müəssisələri, səfirliklər, enerji şirkətləri, tədqiqat institutları, özəl investisiya şirkətləri və s. var.

Yeni resursda «Kasperski laboratoriyası»nın 28 məqsədli hücum, o cümlədən «Qırmızı oktyabr», «Stuxnet», «Maska», «Icefog», «Regin», «Darkhotel» və s. üzrə informasiyası sistemləşdirilib.

Saytın şəbəkə təhdidləri radarında kiberşirkətlərin hamısı qəmi şəklində müvəqqəti cədvəlin uzununa əks etdirilib. Gəminin şəklinin böyüməsi cinayətkarların əməliyyatı davam etdirməsini bildirir. Arxada uzanan izin uzunluğu ilk zərərli kod nümunələrinin tədqiqatın nəticələri açıqlanmazdan əvvəl aşkarlanmasını göstərir. Həmçinin rəng qradiyenti qurbanların sayını bildirir.

Servis həmçinin müxtəlif kiberşirkətlər arasında əlaqə və onlar haqqında ətraflı məlumatla - yoluxma coğrafiyası, zərərçəkənlərin sayı, zərərli proqramların yayılma üsulları, cinayətkarların məqsədi, eləcə də xarakter xüsusiyyətlər siyahısı ilə tanış olmağa imkan verir.

Hazırda ingilis dilində fəaliyyət göstərən «Məqsədli kiberhücumların xronikası» saytının rusdilli versiyasının 2015-ci ildə istifadəyə verilməsi nəzərdə tutulur.

# Uşaqlarda hərarəti salmaq lazımdırmı?

məsləhət

*Uşağın hərarəti yüksələndə böyüklər qorxuya düşür və ona qızdırma salan dərman verməyə tələsirlər. Hərarət adətən virus infeksiyası fonunda yüksəlir. Xəstəlik çox vaxt məhz bədənin hərarətinin artması ilə başlayır, digər əlamətlər bir qədər sonra üzə çıxır. Əslində, hərarət yaxşı əlamətdir. Hərarətin yüksəlməsi orqanizmin infeksiya ilə mübarizəyə başladığını, yüksək hərarət isə orqanizmin bunun öhdəsindən yaxşı gəldiyini göstərir.*



Hərarət orqanizmin xəstəliyə reaksiyasıdır və immunitetin sağlam olmasına dəlalət edir, yəni qorxmaq əvəzinə sevinmək lazımdır. Hərarətin süni şəkildə salınması orqanizmin müdafiəsini zəiflədə bilər, buna görə də ciddi səbəb olmadan, yəni termometrin göstəricisi 38,5 dərəcəni keçmədikdə, dərman verməyə ehtiyac yoxdur.

Əvvəlcə uşağı soyundurmaq lazımdır (temperatur bəzən sadəcə uşağın əynində çox paltar olması səbəbindən 1-2 dərəcə yüksəlir). Söhbət südəmər körpədən gedirsə, əynindəki pampersi çıxarmalısınız, çünki pampers ilə yüksək temperatur bir araya sığmır.

İlıq suya 9 faizlik sirkə əlavə edib (1 litr suya 1 xörək qaşığı) bu məhlulla bədəni ovxalamaq olar. Yaxşı olar, əvvəlcə uşağın başını da yumaqla on dəqiqə çimizdirib sonra bədənini qurulamadan mələfəyə və ya qətfəyə büküb havası dəyişdirilmiş otağa gətirəsiniz. Lakin su prosedurları və ovxalama zamanı suyun temperaturu bədənin hərarətindən 1 dərəcədən aşağı olmamalıdır, əks halda güclü kontrast damarlarda spazma əmələ gətirir. Uşaq qızdırma içərisində titrəyirsə, onu nə çimizdirmək, nə də ovxalamaq olar.

Uşaq qızdıranda maye rejimi gözlənilməlidir. Südəmər uşaqları əmizdirmək, nisbətən böyük uşaqlara azacıq turş su içizdirmək, habelə təbii tərlədici vasitələr: bal əlavə edilmiş çökə və ya moruq çayı vermək lazımdır. Tərləmə də hərarəti salır. Tərləmiş uşağı qurulamaq yox, paltarını dəyişdirmək lazımdır.

Qızdırma salan preparatlara ehtiyac yaranıbsa, uşaqlara parasetamol və ibuprofen kimi preparatlar verilməlidir. Yaşlılar üçün dərman vasitələri ziyan verə bilər. Dünya Səhiyyə Təşkilatının uşaqlara verilməsini ümumiyyətlə qadağan etdiyi aspirin xüsusilə təhlükəlidir.

Nadir hallarda, adətən qızdırma salan dərmanlar kömək etməyəndə, «təcili yardım» çağırmaq lazım gəlir. Həkim briqadası uşağa analqin-papaverin-dimedrol qatışığından ibarət iynə vurur. Əlbəttə, bu, son çarədir.

Özünü müalicə edən insanlar arasında, lazım gəldi-gəlmədi, antibiotiklərdən qızdırma salan vasitə kimi istifadə etməyə meyilli adamlar var. Belələri həkimlər arasında da az deyil. Bu, yanlış təsəvvürdür, çünki antibiotiklər üçün xüsusi göstəricilər var və bədənin hərarətinin yüksəlməsi həmin göstəricilərə daxil deyil.

Antibiotiklər bakterial infeksiyaların müalicəsi üçün nəzərdə tutulub. Viruslu xəstəliklərdə onlar nəinki faydasızdır, hətta zərərlidir.

# Bu da bir hünərdir

maraqlı

*Tbilisi şəhərində Qafqaz Dünya Rekordlar Federasiyasının təşkilatçılığı ilə acı bibər yarışı keçirilib. «Qudvil» Mərkəzində keçirilən yarışda istirak edən gənclər acı bibər yemək bacarıqlarını nümayiş etdiriblər.*

Federasiyanın prezidenti, azərbaycanlı «maqnit adam» ləqəbli Etibar Budaqlı-Elçiyev bildirib ki, belə bir festival ilk dəfə keçirilir. «Qudvil» Mərkəzinin hazırladığı acı yeməklərlə bərabər, acı bibərlər də menyuya daxil edilib.

«Qudvil» Mərkəzinin əməkdaşı Arçil Qordsaxiya yarışın qalibi olub. O, 4 ədəd acı bibəri 2 dəqiqə 49 saniyəyə yeyib.

Yarışın qaliblərinə diplom və hədiyyələr verilib.

Qeyd edək ki, «maqnit adam» ləqəbli Etibar Budaqlı-Elçiyevin adı Ginnesin «Rekordlar kitabı»nın 2014-cü il üçün hazırlanmış versiyasına daxil edilib.

### Müdriklər deyib ki...

***«Bir kişiyə təhsil versən təhsilli bir insan bir qadına təhsil versən təhsilli bir ailə qazanmış olarsan».***

**Hacı Zeynalabdın Tağıyev (1823-1924)**

